# YENİ İLİNİZ MÜBARƏK

*Xalqın sözü haqq sözüdür*

# LERİK



Azərbaycan dünyaya günəş kimi doğacaq.
*Heydər ƏLİYEV*

№ 26-27 (575-576) | 24 dekabr 2018-ci il | Qəzet 1937-ci ildən çıxır | Qiyməti 40 qəpik

# Ulu Öndər Heydər Əliyevə böyük ehtiram









Heydər Əliyev Meydanında Azərbaycan xalqının Ümummilli Lideri, Ulu Öndər Heydər Əliyevin vəfatının 15-ci il dönümü münasibəti ilə anım mərasimi keçirildi.

Rayon icra hakimiyyəti başçısı Rövşən Bağırov, hüquq mühafizə orqanlarının rəhbərləri Ümummilli Liderin abidəsini ziyarət edərək, xatirəsini ehtiramla yad etdilər.

Sonra rayonda fəaliyyət göstərən idarə, müəssisə və təşkilatların kollektivləri, ağsaqqallar, rayon ictimaiyyətinin nümayəndələri, məktəblilər Ümummilli Lider Heydər Əliyevin abidəsi önündən keçərək abidənin önünə tər gül-çiçək dəstələri düzdülər, Ulu Öndərə sonsuz ehtiramlarını bildirdilər.

Daha sonra Heydər Əliyev Mərkəzində Ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətinə həsr olunmuş elmi-praktik konfrans keçirildi. Konfrans iştirakçıları Heydər Əliyev Mərkəzində ümummilli liderin həyat və fəaliyyətini əks etdirən eksponatlarla tanış oldular və Ümummilli Liderin həyatını əks etdirən "Dastana sığmayan ömür" adlı qısa metrajlı sənədli filmə tamaşa etdilər.

Konfransı giriş sözü ilə açan icra hakimiyyəti başçısı Rövşən Bağırov Ümummilli Lider, ulu öndər Heydər Əliyevin keçdiyi mənalı, şərəfli həyat yolundan, qurucusu və memarı olduğu müstəqil dövlətimizin iqtisadi cəhətdən gücləndirilməsi istiqamətindəki heç bir ölçüyə sığmayan fəaliyyəti barədə geniş məlumat verərək "Heydər Əliyev və Azərbaycan dövlətçiliyi" mövzusunda məruzə etdi.

Bildirdi ki, məhz xalqın təkidli tələbi ilə Heydər Əliyevin hakimiyyətə yenidən qayıdışından sonra Azərbaycan xalqında ruh yüksəkliyi yarandı, gələcəyə inam oyandı. Azərbaycan təcrid vəziyyətindən çıxdı və dünya birliyinin üzvü oldu, mötəbər beynəlxalq təşkilatlara qəbul edildi. Müstəqilliyin və dövlətçiliyin möhkəmləndirilməsi, siyasi, iqtisadi və hüquqi sahədə islahatlara başlanıldı, ölkə quruculuq, demokratik cəmiyyət və hüquqi dövlət yaradılması yoluna qədəm qoydu.

Azərbaycan xalqının Ümummilli Lideri, Ulu Öndər Heydər Əliyevin Azərbaycan dövlətçiliyi və xalqımızın rifahı naminə göstərdiyi fəaliyyət xalqımız tərəfindən həmişə fəxrlə yad edilir. Azərbaycançılıq məfkurəsini dövlətçilik ideologiyasına çevirən Ulu Öndərin əbədiyyətə qovuşmasından 15 il ötsə də, onun ideyaları Azərbaycan Respublikasında möhtərəm Prezidentimiz cənab İlham Əliyev və xalqımız tərəfindən uğurla həyata keçirilir. Dünyada müharibə və iqtisadi böhranın davam etdiyi bir vaxtda Azərbaycanda sabitlik hökm sürür, dövlətimiz gündən-günə inkişaf edir.

Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş və bu gün cənab Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasətin nəticəsidir ki, ölkəmizin bütün bölgələri sürətlə inkişaf edir. Bunu rayonumuzun timsalında daha aydın görmək olar. Son illərdə rayonumuz gündən-günə inkişaf edir, gözəlləşir. Əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması, yeni iş yerlərinin yaradılması məqsədi ilə Lerik şəhərində və kəndlərimizdə tikinti-quruculuq, abadlıq işləri aparılmış, yeni məktəb binaları, səhiyyə ocaqları, digər sosial obyektlər tikilmiş, yaşayış məntəqələrinə qaz xətlərinin çəkilişi davam etdirilmiş, kəndlərarası yollar təmir və bərpa edilmişdir. Prezident cənab İlham Əliyev oktyabrın 15-də rayonumuza dördüncü səfəri zamanı 5 mühüm əhəmiyyətə malik obyektlərin açılış mərasimlərində iştirak etdi, rayon ictimaiyyət nümayəndələri ilə görüşdü. Görüş zamanı cənab Prezident rayonda görülən işləri yüksək qiymətləndirdi və bu tədbirlərin növbəti illərdə də davam etdiriləcəyini bildirdi. Bütün bunlar rayon ictimaiyyəti tərəfindən razılıq və minnətdarlıqla qarşılanır.

Həyatını öz xalqına bəxş etmiş Heydər Əliyevin siyasi və dövlət xadimi kimi zəngin fəaliyyəti Azərbaycan xalqının tarixində dərin iz buraxaraq əsl dövlət idarəçiliyi məktəbinə çevrildiyini qeyd edən natiq Azərbaycan xalqının hələ neçə-neçə nəsli Heydər Əliyevin zəngin siyasi irsindən ölkəmizin inkişafı, xalqımızın rifahı naminə faydalanacağını diqqətə çatdırdı.

Konfransda YAP Lerik rayon təşkilatının aparat rəhbəri Elxan Qənbərov "Heydər Əliyev və Yeni Azərbaycan Partiyası", Lerik Rayon Məhkəməsinin sədri Atabəy Kiçibəyov "Ulu Öndərin hüquqi dövlət quruculuğu sahəsində gördüyü işlər", Lerik "Uzunömürlülər" muzeyinin direktoru Dilara Fətullayeva "Ölkəmizdə dövlət qadın siyasətinin banisi", Lerik Rayon Gənclər və İdman İdarəsinin rəisi Natiq İsaqov "Qloballaşma şəraitində gənclərin milli ruhda tərbiyəsində Ulu Öndərin rolu" mövzularında geniş məruzə etdilər.

Tədbir iştirakçılarından Əkrəm Abdullayev çıxış edərək müasir Azərbaycan dövlətinin memarı və qurucusu Ulu Öndərin həyatı, dövlətçilik tariximizdə mühüm əhəmiyyət kəsb edən fəaliyyəti haqqında məlumat verdi. Bildirdi ki, ötən əsrdə iki dəfə xalqımızın və dövlətçiliyimizin ən ağır vaxtında məsuliyyəti öz üzərinə götürərək siyasi hakimiyyətə gələn dahi şəxsiyyət Heydər Əliyev öz uzaqgörən siyasəti ilə Azərbaycanı inkişaf yoluna çıxarmış, dövlətçiliyimizi məhv olmaqdan xilas etmişdir. Bütün bu xeyirxah əməlləri ilə xalqın ürəyində özünə əbədilik qazanmışdır.

Sonra Lerik şəhərində "Xeyir-şər" evində rayon icra hakimiyyəti tərəfindən Ulu Öndər Heydər Əliyevin anım mərasimi ilə əlaqədar 300 nəfərlik ehsan süfrəsi açıldı.





# Vətən daşı olmayandan...

Şəhid Namaz Muradov adına Günəşli kənd tam orta məktəbində "Vətən daşı olmayandan olmaz ölkə vətəndaşı"... mövzusunda maarifləndirici, tərbiyəvi mövzusunda qazilərlə görüş keçirilmişdir. Görüşə şəhid valideynləri, veteranlar, Aprel döyüşünün iştirakçıları, ziyalılar, ictimaiyyətin nümayəndələri dəvət olunmuşdular.

Məktəbin direktoru Qurban Ağayev tədbiri açaraq dedi:

- Ulu öndər Heydər Əliyev Azərbaycan rəhbərliyinə qayıtdıqdan sonra müstəqil dövlətin bir sıra problemlərini həll etdi. Münaqişəni nizamlamaqdan ötrü Minsk qrupu yaradıldı, islahatlara start verildi, "Əsrin müqaviləsi" imzalandı, yeni qanunlar hazırlanıb qəbul edildi. Azərbaycan dünyada söz sahibi oldu, beynəlxalq aləmdə nüfuzu artdı.

Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev böyük səs çoxluğu ilə ölkə başçısı seçildi və Ulu öndərin daxili və xarici siyasətini uğurla yerinə yetirməyə başladı. Ən əsası, ordu quruculuğuna, Azərbaycanın təhlükəsizliyinə böyük önəm verdi, Ermənistanın Azərbaycana haqsız müdaxiləsini həll etmək üçün bütün imkanlardan istifadə etdi və edir.

Aprel döyüşlərinin iştirakçısı Eşqin Hüseynov Günəşli məktəbinin yetirməsidir. O, qazi olmağıyla fəxr edir. E.Hüseynov çıxış edərək dedi:

- Mən Aprel döyüşçüsü olmağımla fəxr edirəm. Qəhrəmancasına vuruşub şəhid olanları bu gün hamı ehtiramla anır. Biz indi də özümüzü mübariz əsgər kimi hiss edirik və istənilən vaxt işğala məruz qalmış torpaqlarımızı azad etməyə hazırıq...

Tarixçi müəllim, "Təhsil əlaçısı" Hüseynbala Əliyev öz nitqini belə yekunlaşdırdı:

- Bu gün Azərbaycan Ordusu beynəlxalq reytinqinə görə dünya miqyasında 50 ən güclü ordu sırasındadır. Azərbaycan Silahlı Qüvvələrinin 100 illiyi və Bakının işğaldan azad edilməsinin 100 illik yubileyi münasibəti ilə keçirilən hərbi paradlar da silahlı qüvvələrimizi dünyaya nümayiş etdirdi. İlham Əliyev paradda bəyan etdi ki, gün gələcək işğal altındakı torpaqlar azad olunandan sonra orada qaldırılacaq Azərbaycan Bayrağı Azaqlıq meydanına gətiriləcək və hərbi paradda göstəriləcək. "Biz bu müqəddəs günü yaxınlaşdırmalıyıq və yaxınlaşdırırıq".

Şəhid atası Fərman Muradov, Qarabağ müharibəsi iştirakçısı Bulud Əliyev, təqaüdçü müəllim Fərman Hüseynov, qazi Eşqin Hüseynovun sinif müəllimi olmuş Əzizə Əliağayeva və başqaları çıxış etdilər, vətənpərvərlik ruhu, psixoloji durumu, döyüş bacarığı yüksək olan, Qarabağ Müharibəsinin qəhrəman oğullarının şücaətini əks etdirən video-çarxa baxdılar.

# 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibəti ilə TƏBRİK



Hörmətli leriklilər, əziz həmvətənlər!

Sizi 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibəti ilə ürəkdən təbrik edir, Sizin hər birinizə möhkəm cansağlığı, uzun ömür, xoşbəxtlik və səadət arzulayıram. Arzu edirəm ki, qarşıladığımız 2019-cu il hər birinizin evinə əmin-amanlıq və xoşbəxtlik ili kimi daxil olsun, hər bir ailəyə ruzi-bərəkət gətirsin!

Xalqımızın həyatında bir sıra əlamətdar hadisələrlə zəngin 2018-ci il artıq tarixə qovuşur. 2018-ci ildə respublikada əldə olunmuş iqtisadi yüksəliş əhalinin əmək haqqı və pensiyalarının artması, həyat səviyyəsinin yüksəlməsi, yeni iş yerlərinin açılması üçün zəmin yaratmışdır. Respublikamız üçün uğurlu və mühüm hadisələrlə zəngin olan bu ildə xalqımız Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyini bayram əhval-ruhiyyəsində qeyd etdi. XX əsrdə dövlət müstəqilliyinin bərpasından ötən 27 il ərzində, xüsusilə son illər cənab İlham Əliyevin gərgin səyi ilə ölkə iqtisadiyyatı uğurla inkişaf edir, respublikanın sosial-iqtisadi inkişafının möhkəmləndirilməsi istiqamətində həyata keçirilən mühüm dövlət proqramları, məqsədyönlü islahatlar ölkənin davamlı inkişafına yeni imkanlar yaradır. Paytaxtla yanaşı, regionlarımızda da geniş abadlıq-quruculuq işləri görülür, bölgələrimiz inkişaf edir. Bu gün Azərbaycan iqtisadi inkişaf tempinə görə nəinki Cənubi Qafqazda, eləcə də MDB məkanında lider dövlətdir.

Respublikanın hər yerində olduğu kimi, rayonumuzda da son illər tikinti-quruculuq işləri vüsət almışdır. Lerik şəhərinin küçə və meydanları yenidən qurulmuş, işıqlandırma şəbəkəsi yaradılmışdır. Onlarla inzibati idarə binaları, Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün yaşayış evləri və fərdi mənzillər, yeni səhiyyə və mədəniyyət obyektləri, Lerik-Qosmalıan-Kəlvəz, Noda-Şingədulan-Xanagah avtomobil yolları tikilib istifadəyə verilmişdir. 54 yeni məktəb binası, uşaq bağçaları tikilmiş, müasir avadanlıqlarla təchiz olunmuşdur. Təkcə 2018-ci ildə cənab Prezidentin sərəncamı ilə 10 modul tipli yeni məktəb binasının tikintisinə başlanılmış, 2 kəndə, ümumilikdə 49 yaşayış məntəqəsinə mavi yanacağın verilməsi təmin edilmişdir.

Əziz leriklilər!

2018-ci il də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rayonumuza tarixi dördüncü səfəri ən unudulmaz hadisələrdəndir. 2018-ci il oktyabrın 15-də cənab Prezidentin Lerikə səfəri rayon əhalisinə sevinc bəxş etmişdir. Səfər zamanı yenidən tikilərək asfaltlaşdırılmış Piran-Hamarat-Vıjaker yolunun, Lerik şəhərində 100 yerlik körpələr evi-uşaq bağçasının, Bayraq Muzeyinin və modul tipli elektrik stansiyasının açılışları, Lerik şəhərinə suyun verilməsi, Lənkəran-Lerik yolunun yenidən təmir edilməsi biz leriklilərə gözəl bir hədiyyə oldu.

2019-cu ildə rayonumuzun sosial-iqtisadi və mədəni həyatında infrastruktur layihələrin icrası, tikinti işlərinin davam etdirilməsi, əhalinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması ilə bağlı cənab Prezidentin imzaladığı sərəncamlar Lerikin inkişafına göstərilən diqətin bariz nümunəsidir.

İnanıram ki, ölkəmizin gündən-günə güclənən iqtisadi qüdrəti, Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin regionların inkişafına göstərdiyi qayğı və diqqət nəticəsində qarşıdakı illərdə də rayon mərkəzləri ilə yanaşı, kəndlərimiz də daha da gözəlləşəcək, xalqımız firavan və xoşbəxt yaşayacaqdır.

Əziz həmvətənlər!

Bir daha hər birinizi xalqımızın milli birlik və həmrəylik günü olan 31 Dekabr-Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibəti ilə ürəkdən təbrik edir, hamınıza sağlam həyat, xoş əhval-ruhiyyə, vətənimiz Azərbaycanın və rayonumuzun tərəqqisi naminə fəaliyyətinizdə uğurlar arzulayıram.

Yeni iliniz mübarək!

***Hörmətlə,***

***Rövşən Bağırov,***
***Lerik Rayon İcra Hakimiyyəti başçısı***

# Mastail kəndində vətəndaşlarla səyyar görüş-qəbul keçirildi





Rayon icra hakimiyyəti başçısı, hüquq mühafizə orqanlarının, əlaqədar idarə və təşkilat rəhbərlərinin iştirakı ilə Mastail kəndində Mastail, Livədirqə, Murya, Əvilə və Nısomurya kəndindən olan vətəndaşlarla səyyar görüş-qəbulu keçirildi.

Səyyar görüş qəbulda Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin sektor müdiri Dəyanət Abdullayev iştirak edirdi.

Öncə rayon icra hakimiyyəti başçısı Rövşən Bağırov səyyar görüş-qəbulda iştirak edən vətəndaşları salamladı və bildirdi ki, cənab Prezidentin tapşırığına əsasən yerlərdə əhali ilə keçirilən səyyar görüş-qəbullar qrafikinə uyğun olaraq bu gün növbəti dəfə sizlərlə Livədirqə ərazisində görüşürük.

Cənab Prezident İlham Əliyevin yürütdüyü məntiqli, düşünülmüş siyasəti nəticəsində ölkəmizin gündən günə inkişaf etdiyini vurğulayan natiq uğurla icra edilən Dövlət Proqramları çərçivəsində rayonumuzda görülən işlər barədə məlumat verdi.

Cənab Prezidentin rayonumuza dördüncü tarixi səfərindən və rayonumuza göstərdiyi xüsusi diqqət və qayğısından söhbət açan natiq ölkəmizin digər rayonları kimi, Lerik rayonunun da ildən-ilə inkişaf etdiyini, abadlaşdığını bildirdi. Ötən müddət ərzində rayonumuzun inkişafı üçün çox vacib olan Noda-Şingədulan-Xanagah və Lerik-Qosmalıan-Kəlvəz, Piran-Hamarat-Vijaker avtomobilinin yolunun tikintisi başa çatdırılmış, əhalimizin istifadəsinə verilmişdir. Bu il həmçinin, cənab Prezidentin sərəncamı ilə Lənkəran-Lerik magistral yolu da təmir edilərək əhalinin həm Bakı şəhərinə, həm də digər qonşu rayonlara gəliş-gedişi asanlaşmışdır.

Livədirqə ərazisində görülən işlər, ərazinin tam qazlaşdırılması və telefonlaşdırılması, Mastail kənd məktəbinin əsaslı təmir edilməsi, Livədirqə və Əvilə kəndlərində yeni məktəb binalarının inşa edilməsi, ərazinin kəndara avtomobil yollarının vaxtaşırı təmir edilməsi, Mastail, Livədirqə və Murya kəndlərində körpülərin tikilməsi və digər sosial obyektlərin inşa edilməsi barədə məlumat verdi.

Son illər rayon mərkəzi ilə yanaşı, ucqar dağ kəndlərimizdə də 50-yə yaxın yeni məktəb binalarının tikildiyini, 50-yə yaxın kəndə qaz xəttinin çəkildiyini, 12 kənddə elektrik xətlərinin sipp kabelə əvəzləndiyini, kəndara yollarının təmir edildiyini, bir neçə kəndimizin yoluna asfalt döşəndiyini qeyd etdi. Bu il cənab Prezidentin müvafiq sərəncamları ilə rayon ərazisində 10 modul tipli məktəbin, Noda kəndində 50 yerlik uşaq bağçasının tikintisi, Veri kəndinə qaz xəttinin çəkilməsi, kəndara yolların təmir edilməsi, Lerik şəhərinin, həmçinin Molalan, Sors, Şingədulan və Geskon kəndlərinin də içməli su təchizatı ilə təmin edilməsi istiqamətində işlərin aparıldığını qeyd edən natiq cənab Prezidentin rayonumuza göstərilən yüksək diqqət və qayğının bariz nümunəsi olduğunu diqqətə çatdırdı.

Cənab Prezidentin rayonumuza tarixi səfərindən sonra Lənkəran-Lerik avtomobil yolunun yenidən qurulması, Lerik şəhərində 48 mənzilli binanın və Orand kəndində yeni məktəb tikintisinə vəsaitin ayrılması barədə Sərəncam imzalaması rayonumuzun gələcək inkişafından xəbər verdiyini vurğuladı.

Səyyar görüş-qəbulda çıxış edən vətəndaşlardan Abbas Zaidov, Adil Rzayev, Əlirza Kərimov, Elşən Cəfərov, Balaşirin Nəsirov, Fəxrəddin Əliyev, Avdıl Ramazanov və digərləri çıxış edərək Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin qayğı və diqqəti ilə ucqar dağ rayonu olan Lerikdə son illər aparılan tikinti-quruculuq və abadlıq işləri, ərazilərin qazlaşdırılması, avtomobil yollarının asfaltlaşdırılması, yeni məktəb, səhiyyə, uşaq bağçaları və digər sosial obyektlərin tikildiyini qeyd etdilər və ölkə başçısına minnətdarlıqlarını bildirdilər. Mastail və Murya kəndlərində içməli su probleminin həllinə, Mastail kənd məktəbinin internet şəbəkəsinə qoşulmasına, məktəbin ərazisində məktəblilər üçün futbol meydançasının tikintisinə və məktəbin elektrik transformatorunun şəbəkəyə qoşulmasına, Əvilə kəndi ilə Livədirqə kəndini birləşdirən avtomobil yolunun çaydan keçən ərazisində körpünün inşa edilməsinə, Lerik-Mastail-Livədirqə avtomobil yolunun Noda-Şingədulan-Xanagah magistral avtomobil yoluna birləşdirilməsinə və yolun asfaltlaşdırılmasına, Mastail kəndində xəstəxananın açılmasına, ərazidə elektrik xətlərinin təmirinə və digər problemlərin həllinə köməklik göstərilməsini xahiş etdilər.



Səyyar görüş-qəbulda Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin sektor müdiri Dəyanət Abdullayev çıxış edərək öncə görüş iştirakçılarını salamladı. Bildirdi ki, görüşdə aktivlik etdiyinizə görə sizlərə təşəkkür edirəm. Sizlər tərəfdən qaldırılan problemlərin əksəriyyəti ictimai məsələlərdir. Cənab Prezidentin qeyd etdiyi kimi ictimai nəzarətin güclü olması vətəndaşların rifah halının daha da yaxşılaşmasına və respublikamızın inkişafına öz töhfəsini verir. Lerik rayonunda olduğu kimi bu ərazidə də böyük işlər görüldüyünü, ərazinin tam qazlaşdırıldığını, yeni məktəb binalarının, həkim məntəqəsinin tikildiyini qeyd etdi. Bildirdi ki, qaldırılan problemlərin əksəriyyətinin həllinə nail olunmaqdan ötrü müvafiq icra hakimiyyəti orqanlarına müraciət etməklə həllinə nail olunacaqdır.

Səyyar görüş-qəbulda rayon icra hakimiyyəti başçısı vətəndaşlar tərəfindən verilmiş təklif və qaldırılan problemlərin icrasına nail olmaq məqsədilə görüləcək tədbirləri qeyd etdi, aidiyyəti vəzifəli şəxslərə müvafiq tapşırıqlar verdi.

# Heydər Əliyev müasir gənclər siyasətinin banisidir

***Dahi şəxsiyyət, Ümummilli lider Heydər Əliyev 15 ildir cismən aramızda olmasa da o parlaq zəka sahibinin ideya və gələcəyimizə hesablanmış düşüncələri Azərbaycanda əbədi olacaq! Bunu deməyə əsasımız var. Ölkənin bütün bölgələrində sürətli inkişafın canlı şahidləriyik. Yaşadığımız ucqar dağ rayonuna dövlətimizin və onun rəhbəri cənab İlham Əliyevin böyük diqqət və qayğını hiss edir.***

Müstəqil dövlətimizin hər bir sahəsində dəqiqliklə ölçülmüş dinamik inkişafa söykənən siyasət yürüdülür Gəncliyin sağlam ruhlu, savadlı, yüksək mənəvi tərbiyəyə malik olması dövlət üçün önəmlidir. Cəmiyyətin aparıcı təbəqəsi gənclərdirsə, deməli, inkişaf və inteqrasiya məhz onlarla bir addımlayır. Cəmiyyətin gələcəyi gənclərdir və öz gələcəyini düşünən hər bir cəmiyyət gənclərə qayğı göstərir. Bununla da əslində özünün xoşbəxt və firavan gələcəyinin təmin olunması istiqamətində mühüm addımlar atmış olur. Bu məlum həqiqəti Azərbaycanda hamıdan yaxşı anlayan və bunun həyata keçirilməsi üçün lazımı tədbirləri görən yeganə bir insan var idisə, o da Heydər Əliyev idi.

Belə bir aksioma var ki, hər bir cəmiyyət gəncləri öz mədəniyyəti ruhunda tərbiyə edir. Tarixən hər bir xalq özünün xoşbəxt gələcəyə olan ümidlərini, ilk növbədə, gənc nəsillə bağlayır. Gənc nəslin yetişdirilməsi hər bir ölkə üçün ən başlıca məsələdir. Həmçinin, dünyanın istənilən ölkəsində gənclər də sosial-iqtisadi inkişafın aparıcı qüvvələrindən biri, cəmiyyətin islahatları hərəkətə gətirən zümrəsi və yaşlı nəslin davamçısı hesab olunur. Gənclər cəmiyyətin ən dinamik zümrəsi olmaqla dövlətin ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında fəal iştirak edir, ölkədə baş verən bütün proseslərin mərkəzində dayanır. Nəsillər dəyişir, ölkələr inkişaf edir. Ancaq ənənələr, milli dəyərlər gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunması onun mənsub olduğu xalqın rifahının və ölkənin çiçəklənməsinin rəhnidir.

Ümummilli lider Heydər Əliyev uzaqgörən, qətiyyətli siyasətçi olduğunu hələ ölkəyə ilk dəfə rəhbərlik etdiyi 1969-1982-ci illərdə sübut etmişdi. Həmin vaxta qədər Azərbaycan iqtisadi və mədəni sahədə tənəzzül dövrünü yaşayırdı. Ulu Öndərin hakimiyyətə gəlişi ilə ölkədə sürətli yüksəliş, milli ruhun inkişafı və mənəviyyatın tərəqqisi dövrü başlandı. Azərbaycan aqrar respublikadan inkişaf etmiş sənaye respublikasına çevrildi.

Gənclərimizin bir fərd, əsl Azərbaycan vətəndaşı kimi formalaşmasında ümummilli lider Heydər Əliyevin danılmaz əməyi, misilsiz xidmətləri var. Ulu Öndərin zəngin və möhtəşəm dövlətçilik fəaliyyətində gənclər siyasəti hər zaman xüsusi yer tuturdu. Hələ keçən əsrin 70-80-ci illərində müdrik rəhbərin göstərişi ilə yüzlərlə azərbaycanlı gənc keçmiş SSRİ-nin Moskva da daxil olmaqla aparıcı ali məktəblərinə, müxtəlif ixtisaslar üzrə təhsil almağa göndərildi.

Müstəqil Azərbaycan Respublikasında gənclərlə iş sahəsində yaranmış bu boşluq yalnız 1993-cü ilin iyununda Heydər Əliyevin ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra aradan qaldırılmağa başlandı və gənc nəslə diqqət və qayğı dövlətin ən mühüm fəaliyyət sahələrindən birinə çevrildi. Məhz 1993-cü ildən başlayaraq Azərbaycanda dövlət gənclər siyasəti təşəkkül tapmağa başladı.

1993-cü ilin 22 sentyabrında Azərbaycan Prezidentinin səlahiyyətlərini icra edən, Respublika Ali Sovetinin sədri, ümummilli lider Heydər Əliyev gənclərin bir qrupu ilə görüşmüş, Azərbaycan gəncliyini ölkənin ictimai-siyasi həyatında daha fəal iştirak etməyə, ölkənin taleyinə biganə qalmamağa çağırmışdı.

Gənclərlə iş sahəsində dövlət siyasətinin mühümlüyünü nəzərə alaraq, Azərbaycan Prezidenti Ümummilli Lider Heydər Əliyev 1994-cü ilin iyul ayının 26-da bu siyasəti həyata keçirəcək yeni dövlət qurumunun-Gənclər və İdman Nazirliyinin yaradılması haqqında fərman imzaladı. Yeni nazirliyin qarşısına qoyulan əsas məsələlərdən biri böyüməkdə olan nəslin Vətənə, xalqa məhəbbət ruhunda tərbiyə olunması, gənclərin sosial-iqtisadi problemlərinin həlli, mənəvi ehtiyaclarının ödənilməsi, gənc nəslin hərtərfli inkişafı üçün şəraitin yaradılması olmuşdur.

Respublikada çoxsaylı gənclər təşkilatlarının fəaliyyət göstərdiyi bir şəraitdə onların işini əlaqələndirmək zərurəti getdikcə özünü daha çox göstərirdi. Bu işi təmin etmək məqsədilə Prezident Heydər Əliyevin xüsusi fərmanı ilə 1996-cı ilin 2 fevralında keçirilmiş Müstəqil Azərbaycan Gənclərinin I Forumunun xüsusi əhəmiyyəti oldu. Forumda gənclərin bütün kateqoriyalarını, tələbələri, hərbiçiləri, jurnalistləri, siyasi partiya və gənclər təşkilatlarını təmsil edən 2 mindən çox nümayəndə iştirak etmişdi. Forumun işində respublika Prezidenti başda olmaqla bütün dövlət orqanlarının rəhbərləri iştirak etmiş, gənclərin irad və təkliflərini dinlənilmiş, bütün Azərbaycan gəncliyinin problemləri yaxından öyrənilmişdir.

Ordudan tərxis olunmuş gənclərin məşğulluq probleminin həlli, istedadlı yeniyetmələrin və yaradıcı gənclərin sosial, iqtisadi və s. problemlərinin həlli» və digər dövlət proqramları hazırlanıb və onlar respublika hökuməti tərəfindən təsdiq edilib. Məhz 2 fevral tarixi ölkədə Gənclər Günü kimi qeyd olunur.

Eyni zamanda, 1993-2003-cü illərdə Prezident tərəfindən təsdiq olunmuş dövlət proqramlarının əksəriyyətində gənclərlə bağlı müvafiq maddələr öz əksini tapmışdır.

Milli mənliyi olan şəxs milli həyatın heç bir hadisəsinə laqeyd qala bilməz. Vətən, torpaq məhəbbəti, millətin və xalqın qayğıları onun şəxsi istək və arzularını üstələyir, onu xalq üçün müəyyən fəaliyyət göstərməyə sövq edir. Xalqımız böyük xalqdır. Böyük tarixə, böyük mədəniyyətə malik olan xalqdır.

Azərbaycan gənclərinin günümüzün müasir, inkişaf etmiş, yüksək intellektli aparıcı qüvvə kimi formalaşmasında, birmənalı olaraq, dövlətimizin apardığı gənclər siyasətinin mühüm rolu olmuşdur. Bu siyasətin banisi isə xalqımızın ümummilli lideri Heydər Əliyevdir. Ulu öndər Heydər Əliyevin gənclər siyasəti əsrlər boyu xalqımızın malik olduğu milli-mənəvi dəyərlər əsasında, müstəqillik, dövlətçilik, azadlıq və onların qorunması uğrunda mübariz ruhlu gənc nəslin yetişdirilməsində bir mayak olacaqdır.



***Ramin Əliyev,***
***Lerik Rayon İcra Hakimiyyəti başçısının köməkçisi***



# Əbədi davam edən siyasi kurs

15 iyun 1993-cü ildə müstəqil Azərbaycan Respublikasının memarı və qurucusu, fenomenal tarixi şəxsiyyət Heydər Əliyevin hakimiyyətə qayıdışı tarixə Milli Qurtuluş Günü kimi daxil oldu. Heydər Əliyev Ali Sovetin sədri seçilməklə Azərbaycanın müstəqilliyi real təhlükədən qurtardı. 13 il sonra Milli Qurtuluş Gününü bayram edərkən keçilmiş yola bir daha nəzər salındıqda keşməkeşli tariximizdə həmin məqamda Ümummilli Lider Heydər Əliyevin Azərbaycan xalqı qarşısında fədakarlığı ilə fəxr etməyə bilmirsən. Eyni zamanda, Azərbaycan dövlətinin qurulması və inkişafında bir vətəndaş kimi öz üzərinə düşən məsuliyyəti daha dərindən dərk edirsən və Azərbaycanın müstəqilliyinin əbədi, daimi və sarsılmaz olmasına bir daha inanırsan.

Xalqın xahişi və təkidi ilə Heydər Əliyev Azərbaycanda hakimiyyətə qayıtdı. Bu böyük qayıdış xalqımızın, millətimizin və dövlətimizin qurtuluşuna yol açdı. Ümummilli lider ilk gündən xilaskarlıq missiyasını qətiyyətlə yerinə yetirərək qısa zaman ərzində dövlətçiliyimizi təhlükələrdən xilas etdi.

Müstəqilliyimizin qorunması və inkişaf etdirilməsinə, ictimai-siyasi sabitliyin, atəşkəs rejiminin təmin olunmasına nail olan böyük Öndər ilk günlərdən dövlət intizamının, qanunçuluğun, hüquq-mühafizə orqanlarının və qüdrətli ordunun yaradılması məsələlərinə diqqəti artırdı. Daim xalqının mənafeyinə xidmət edən Heydər Əliyev az müddət içərisində ölkədə demokratik, iqtisadi, sosial islahatlara başlamaqla çox mühüm işlər gördü. Böyük rəhbərin şəxsi təşəbbüsü ilə respublikamızda sahibkarlığın inkişafı üçün hər cür şərait yaradıldı. Onun nəticəsidir ki, hazırda sahibkarlarımızın sorağı uzaq xarici ölkələrdən gəlir.

Ümummilli liderimiz Heydər Əliyev xarici iş adamlarının diqqətini Azərbaycana cəlb etməklə, ölkəmizə sərmayə axınını gücləndirdi.

Onun prezidentliyi dövründə Azərbaycan bütün sahələrdə, o cümlədən demokratiya, insan haqlarının qorunması istiqamətində çox böyük nailiyyətlər əldə etdi. Azərbaycan nüfuzlu beynəlxalq təşkilatların tam hüquqlu üzvü seçildi. NATO və Avropa Birliyi ilə səmərəli əməkdaşlıq əlaqələri quruldu.

Ümummilli Liderimiz Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı Azərbaycan iqtisadiyyatının dirçəlməsinə və dünya iqtisadiyyatına, inteqrasiyasına imkan yaratmışdır, milli sahibkarlığın formalaşmasına, özəl sektorun inkişafına güclü təkan vermişdir. Ölkəmizdə ictimai-siyasi sabitliyin bərqərar olması və həyata keçirilən islahatlar xarici inşvestorların respublikamızda fəaliyyət göstərmələrinə də əlverişli şərait yaratmışdır.

1994-cü ildə "Əsrin müqaviləsi" imzalanandan sonra Azərbaycan öz iqtisadi əlaqələrini etibarlı şəkildə qurımaqla beynəlxalq aləmdə iqtisadi və siyasi dayaqlarını müəyyənləşdirdi. Fərəh hissi ilə deyə bilərik ki, artıq Azərbaycan özünün neft strategiyasını uğurla həyata keçirir, bu strategiya ölkəmizin çiçəklənməsinə və tərəqqisinə, əhalinin rifah halının yaxşılaşmasına, sosial məsələlərin həllinə yönəlib.

Heydər Əliyev siyasi kursu bu gün onun ideyalarına sadiq alan Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ümummilli liderimizin "Mən ona özüm qədər inanıram veç gələcəyinə böyük ümidlər bəsləyirəm" deyərək qiymətləndirdiyi Prezidentimiz bu gün həqiqətən də xalqın etimadını doğrultmaqla həmin ümidləri gerçəkləşdirir. Biz də hər birimiz dahi öndərə məhəbbətimizin təzahürü olaraq Prezidentin ətrafında birləşərək onun qarşıya qoyduğu mühüm vəzifələrin yerinə yetirilməsində daha fəal iştirak etməyə çalışırıq.

Cənab İlham Əliyevin 2003-cü ilin 15 oktyabr prezident seçkilərindəki tarixi qələbəsi bir tərəfdən bu inamın, ümidin məntiqi nəticəsi idisə, digər tərəfdən Heydər Əliyev siyasi kursunun varisliyi axtarışında olan Azərbaycan cəmiyyətinin sosial sifarişi, istəyi idi. O, bu seçkilərdə vətəndaşlarımız qarşısına Heydər Əliyevin idarəçilik sistemində formalaşmış və ona rəhbərlik missiyasını məharətlə davam etdirməyə qadir alternativsiz lider, eləcə də dövlətin tərəqqisinə böyük töhfələr vermiş nüfuzlu siyasi xadim kimi çıxmışdı. Ötən dövr ərzində qazanılan uğurlar 2003-cü ilin 15 oktyabr seçkilərində cənab İlham Əliyevin layiqli varisinə, Ümummilli Liderimizin siyasi kursuna, sülhə, sabitliyə, tərəqqiyə səs verən Azərbaycan xalqının seçimində qətiyyən yanılmadığını göstərmişdir. Azərbaycan Prezidenti dövlətə rəhbərlik etdiyi on beş il müddətində Heydər Əliyev yoluna, Ulu Öndərimizin banisi olduğu milli dövlətçilik ənənələrinə nəinki sadiq qalmış, daha böyük əzmlə davam etdirdiyi bu kursun Azərbaycanın dövlət müstəqilliyi qədər əbədiliyini, dönməzliyini təmin etmişdir.



***Fərman Haşımov,***
***Hamarmeşə kənd tam orta məktəbinin direktoru***

# Azərbaycançılıq əsas məqsəddir

Müstəqillik qazandıqdan sonra demokratik , hüquqi və dünyəvi dövlət olan Azərbaycan Respublikasının son 15 il ərzində beynəlxalq aləmdə böyük uğurlara imza atıb. Dünyadakı mövqelərimiz möhkəmlənir, bizə dünya birliyi tərəfindən böyük rəğbət, dəstək var.



Sevindiricidir ki, Azərbaycana arxalanan dünya azərbaycanlılarına milli, regional, qlobal səviyyədə manevr və fəaliyyət imkanları yüksəlir. İndi təkcə azərbaycanlılar deyil, onların vasitəsilə ölkəmiz haqqında dürüst məlumata malik olan digər millətlərin nümayəndələri, dövlətlərdə və beynəlxalq təşkilatlarda müəyyən məsul vəzifələri icra edən şəxslər də Azərbaycanın maraqlarının müdafiəsində lazımi mövqeyi sərgiləyirlər. Bu işlərdə Diasporalarla iş üzrə Dövlət Komitəsinin böyük rolu var.

Bu gün diaspor fəaliyyətinin daha da təkmilləşdirilmək , Azərbaycanın xeyrinə lobbiçilik hərəkatının genişləndirilmək xüsusi əhəmiyyət kəsb edir. İndi dünyanın müxtəlif ölkələrində 500-ə yaxın diaspor qurumu fəaliyyət göstərir. Diaspor təşkilatlarını daha səmərəli fəaliyyətini təmin etmək, yeni keyfiyyət mərhələsinə keçmək baxımından daha çox iş görülməlidir. Daxili və xarici siyasət sahəsində əldə etdiyimiz uğurlar, ölkəmizin dünya miqyasında əldə etdiyi nailiyyətlər, Azərbaycanın haqq səsinin dünyada eşidilməsi, Azərbaycanın mənafelərini müdafiə edən müxtəlif dövlətlərin siyahısının artması onu deməyə əsas verir ki, biz lobililik fəaliyyətini genişləndirməliyik.

Azərbaycan dövlətinin başçısı deyib ki, "səfirliklərlə diaspor təşkilatları arasındakı əməkdaşlıq daha güclü, daha da məqsədyönlü olmalıdır". Ölkə başçısı xaricdə fəaliyyət göstərən diaspor təşkilatlarımızın o ölkələrin daxili siyasətində iştirak etmələrinin vacibliyini diqqətə çatdıraraq deyib ki, "artıq bunun vaxtı gəlib çatıb. Həm ölkəmizin inkişafı, həm diaspor təçkilatlarımızın güclənməsi qarşımızda belə imkanlar açır. Söydaşlarımız- azərbaycanlılar yaşayan ölkələrdə dövlət, hökumət qurumlarında təmsil olunmalıdır. Onların sayı da bəzi hallarda buna imkan verir. Qanunvericilik orqanlarında təmsil olunmalıdırlar. Bunu etmək üçün azərbaycanlılar arasında qarşılıqlı dəstək və birlik daha da güclü olmalıdır".

Dünya azərbaycanlılarının yaşadıqları ölkələrin seçkili və yaxud icra strukturlarında təmsil olunmaları soydaşlarımızın hüquqları ilə yanaşı, Azərbaycan həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılması baxımından da mühüm əhəmiyyət kəsb edir. Məhz bu halda dünya ölkələrinin parlamentlərində, nəticə etibatilə isə beynəlxalq təşkilatlarda Azərbaycanın işğal olunmuş torpaqları, Ermənistan tərəfindən azərbaycanlılara qarşı törədilmiş soyqırım aktları barədə ədalətli qərarların qəbuluna nail olmaq mümkündür.

# Ulu Öndərin zəngin irsi tədris olunur

**Ümummilli Lider Heydər Əliyevin vəfatının 15-ci ildönümü ilə bağlı Lerik Rayon Heydər Əliyev Mərkəzində 3 dekabr 2018-ci il tarixdən 12 dekabr 2018-ci il tarixinədək tarix dərsləri keçirildi.**



Dərslərə Lerik şəhər 1 saylı texniki fənlər təmayüllü liseyinin, şəhər 2 saylı tam orta məktəbinin, şəhər 3 saylı tam orta məktəbinin, Lüləkəran kənd tam orta məktəbinin, Cəngəmiran kənd tam orta məktəbinin və şəhər inteqrasiya tipli gimnaziyanın IX, X, XI sinif şagirdləri cəlb olunmuşdular. Tarix müəllimləri Ramin İsayev, Rafəddin Səmədov, Fail Məmmədov, Orxan Qənbərzadə, Əhməd Ağayev və Heydər Əliyev Mərkəzinin əməkdaşı Bahar Mürsəliyeva şagirdlərə "Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev müstəqilliyimizin banisidir", " Heydər Əliyev və Azərbaycan dövlətçiliyi", "Ümummilli lider Heydər Əliyev və Azərbaycanda gənclər hərəkatı" və sair mövzularda dərslər tədris etdilər.

Məktəblilər Heydər Əliyev Mərkəzinin ekspozisiya salonunda Ulu Öndərin həyat və fəaliyyətindən, zəngin irsindən bəhs edən eksponatlarla tanış oldular, bu dahi şəxsiyyətə həsr olunmuş qısametrajlı filmlərə baxış keçirdilər. Mərkəzin əməkdaşları tərəfindən şagirdləri maraqlandıran suallar ətraflı cavablandırıldı. Məktəblilər mərkəzdən zəngin təəssüratla ayrıldılar.

***Nübar Cəfərli,***
***Heydər Əliyev Mərkəzinin əməkdaşı.***

# Ana dilimizin sağlığı qorunmalıdır

Görkəmli Azərbaycan maarifçisi Firudin bəy Köçərli deyirdi ki, əgər bir xalqın bütün maddi və mənəvi irsini əlindən alsan, ancaq ana dilinə toxunmasan, həmin millət yox olmaz. O, az müddət sonra yenidən ayağa qalxar. Ana dili olmayan bir millət isə heç bir mal-dövlətə dililtmək olmaz.

XX əsrin 30-cu illərindən başlayaraq rus imperiyasının tərkibindəki bütün xırda xalqların dillərinə olan təzyiq və təqiblər Azərbaycan dilindən də yan ötməyib. 1969-cu ildə ulu öndər Heydər Əliyevin hakimiyyətə gəlməsi Azərbaycan dilinin çiçəklənməsinin əsas səbəbi oldu. Dahi Öndərimizin dərin və uzaqgörən siyasəti nəticəsində respublikamızın Konstitutsiyasında (1978-ci il) Azərbaycan dili rəsmi dil kimi təsbit edildi. Dahi şəxsiyyət Heydər Əliyev ikinci dəfə hakimiyyətə qayıtdıqdan sonra digər sahələrdə olduğu kimi, milli-mənəvi dəyərlərimizin tərkib hissəsi olan ana dilimizin nüfuzunun artırılması üçün məqsədyönlü iş aparıldı. 1993-cü ildən sonra Heydər Əliyev dilimizin qorunması, saflığı, inkişaf etdirilməsi, respublikamızın bütün idarə və təşkilatlarında dövlət dili kimi tətbiq edilməsi uğrunda əzm və qətiyyət nümayiş etdirdi. Onun 18 iyul 2001-ci il tarixli Fərmanı Azərbaycan dilinin tarixinə bəxş etdiyi ən parlaq səhifə idi.

Azərbaycan dilinin sağlığını qoruyub saxlamaq və gələcək nəslə ötürmək hər birimizin müqəddəs vəzifəsidir. Milli dilimizə məhəbbəti Vətənə, Anaya məhəbbətlə müqayisə etmək olar. Dilimizin daha da zənginləşdirmək, onu yad təsirlərdən qorumaq üçün dövlət nə lazımdırsa edir. Azərbaycan Prezidenti İlham Əliyevin dediyi kimi: "Ana dilimizə hörmət və qayğı daim olmalıdır. Biz ana dilimizi xarici təsirdən qorumalıyıq. Ana dilimiz bizim toxunulmaz sərvətimizdir. Müstəqil Azərbaycanın formalaşmasında ana dilimiz-Azərbaycan dili müstəsna rol oynamalıdır. Biz elə etməliyik ki, dilimizin saflığını daim qoruyaq".

Ana dilimiz azərbaycançılıq ideologiyasının mühüm elementi, onun siyasi və sosial-mədəni dayağıdır. Azərbaycan dili həm müstəqil ölkəmizdə, həm də dünyada yaşayan çoxmilyonlu soydaşlarımızın ünsiyyət vasitəsidir. Dövlət dilimiz etnik və konfessional tərkibə malik müstəqil Azərbaycanın bütün vətəndaşlarının ürəkdən qəbul etdiyi və birləşdirici rol oynayan nadir mədəni-sosial fenomendir. Dövlət dili respublikamızda bərqərar olmuş milli həmrəyliklə cəmiyyətimiz üçün xarakterik olan multikulturalizmin vəhdətini təmin etməyə, azərbaycançılıq məfkurəsinin əsas məqsədlərinin birinə çatmağa imkan verir. Bu da bizdən dövlət dilindən istifadəyə və dilin inkişafına həssaslıqla yanaşmağı tələb edir.

Dekabr ayının 5-də keçirilən konfransda "Azərbaycanın teleradio məkanında ədəbi dilin pozulması" layihəsi çərçivəsində teleradio yayımlarının əbədi dil normalarına riayət edilməsi ilə bağlı aparılmış moritorinqin nəticələri açıqlanıb. Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənovun və səlahiyyət sahiblərinin çıxışlarında moritorinqin nəticələri hərtərəfli açıqlanıb. Göstərilib ki, mətbuatda , teleradio məkanında, internet şəbəkəsində, filmlərin dublyajında, xarici dillərdən edilən bədii və elmi tərcümələrdə, küçə və meydanlardakı reklamlarda əksər hallarda Azərbaycan dilimin tələbləri, qrammatik qaydalar gözlənilmir. Təəssüf ki, mətbuatda dil ilə bağlı çoxlu nöqsanlar var. Pozuntulardan biridə əcnəbi sözlərdən yerliyersiz istifadədir. Bu nöqsanlar jurnalistin qeyri-peşəkarlığından və dili yaxşı bilməməsindən irəli gəlir. Moritorinq qrupunun mütəxəssisləri hesabatlarında deyiblər ki, dil vahidlərinin düzgün istifadə etmək əsas amillərdən biridir.

Əli Həsənov bildirib ki, dövlət dilinin tətbiqi dairəsinin genişləndirilməsi və saflığının qorunmasını Prezident İlham Əliyev Azərbaycan dövləti qarşısında duran mühüm vəzifələrdən biri hesab edir. Dövlət başçısı bununla əlaqədar 2012-ci ilin mayında "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və dilçiliyin inkişafına dair Dövlət Proqramı" imzalayıb. Sərəncamdan irəli gələn vəzifələr vacibdir, sahəyə diqqəti artırmaq zəruridir.



***Qubad Əliyev,***
***Əhəd Rzayev adına Orand kənd tam orta məktəbinin direktoru***

# Dəmirçi oğlunun fədakarlığı

77 il əvvəli, 19341-ci il iyunun 22-də Faşist Almaniyası SSRİ üzərinə qəflətən hücuma keçdi."Hər şey cəbhə üçün, hər şey qələbə üçün" səfərbərliyə alındı.

Azərbaycandan Sovet ordusuna 600 min nəfərə yaxın vətəndaş səfərbərliyə alındı. Onlardan 300 min nəfəri müharibədə həlak oldu. 1941-1945-ci illərdə Lerik rayonundan 6500 nəfər cəbhəyə yola salınmış onlardan 1564 nəfər həlak olmuşdur. Hərbi səfərbərliyə alınmış vətəndaşlardan 176 min nəfərdən çoxu orden-medallarla təltif edildi, 130 nəfər Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldü. 30 nəfər "Şöhrət" ordeninin hər üç dərəcəsi ilə təltif edildi. Tank qoşunları qvardiya general mayoru Həzi Əhəd oğlu Aslanov iki dəfə Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldü. Kursk döyüşündə nə Berlinin alınmasında göstərdiyi rəşadətə görə "Şöhrət" ordeninin hər üç dərəcəsinə layiq görülmüş Əli Hüseynov Qafqazdan Berlinə qədər döyüş yolu keçmiş zabit Həmzə Şıxəliyev Lenin ordüninə, Reyxstaqın alınması zamanı qəhrəmancasına şəhid olmuş baş leytenant Feyruz Şıxəliyev "Qırmızı Ulduz" ordeninə layiq görüldülər. Müxtəlif orden və medallarla Ali Baş Komandanın təşəkkürlərinə layiq görülmüş Mehdi Məmmədov, Saleh Vəliyev, Şahmirzə Əliyev, Atamalı Şıxəliyev, Baqı Bəşirov, Şahvəli Rzayev, Kamran Əliyev, Salam Cabbarov, Söhbət Fərziyev, Daşdəmir Paşayev, Mahmud Əliyev, Əbdül Vahabov, Əbutalıb Cavadov və onlarla digər qəhrəman oöulların adlarını iftixarla çəkmək olar. Onlardan biri də Mistan kəndində anadan olmuş Qafar Əjdər oğlu Ələkbərov idi. Qafar Ələkbərovun təhsil illəri, 1941-1945-ci illərdə olmuş II Cahan müharibəsi, onun dinc quruculuq dövründə pedoqoji fəaliyyəti, rəhbər vəzifələrdə iştirakı barədə Əməkdar jurnalist Həmzə Vəlimməmmədovun yazıb "Apostroff" nəşriyyatında çap etdirdiyi "Dəmirçi oğlu" kitabında müfəssəl məlumat almaq mümkündür.

Kitabdan məlum olur ki, Qafar Ələkbərov Lənkəran komsomolçu-gənclər məktəbində təhsil alır, Lənkəran Talış Pedaqoji Texnikumuna daxil olur. Kəlvəz kənd məktəbində müəllim işləyir. 1941-ci ildə müharibə başlayandan üç həftə sonra Gürcüstanın Uryupinsk hərbi piyada məktəbini bitirir. Mozdak şəhərində vzvod komandiri təyin olunur. Partiya sıralarına qabul olunur. O, 43-cü atıcı briqadanın tərkibində rota komandirinin müavini vəzifəsində Şimali Qafqaz cəbhəsinə yola salınır, Stalinqrad ətrafında hitlerçilərin mühasirəyə alınmasında Q. Ələkbərovun daxil olduğu briqada fərqlənir. O, "Qırmızı Ulduz" ordeni ilə təltif olunur. "Praqanın azad edilməsinə görə", "Qafqazın müdafiəsinə görə", "İgidliyə görə", "Almaniya üzərində qələbəyə görə" və "1941-1945-ci illərdə böyük vətən müharibəsinin 90 illiyi, 30 illiyi, 40 illiyi yubiley medalları, "II dərəcəli vətən müharibəsi ordeninə layiq görülür.Lerik rayon partiya komitəsində təbliğat və təşviqat şöbəsinin müdiri işləməklə bərabər, Lerik orta məktəbində hərbi hazırlıq müəllimi təyin olunur.

Müəllif yazır ki, 1948-ci ildə Qafar müəllim "Kolxoz yolu" adlı qəzetin redaktoru təyin olunur. Rayonun iqtisadi, siyasi və mədəni yüksəlişi üçün mənfi hallara qarşı mübarizə aparır, yenilik tərəfdarları olur. 1952-ci ildə Qafar Ələkbərov raykomun katibi seçilir. Ona həm də icariyyə komitəsinin sədri vəzifəsini icra etməyi tapşırırlar.



Kitabdan məlum olur ki, Qafar Ələkbərov Bakı Partiya Məktəbində oxumaqla yanaşı, 1954-cü ildə Pedoqoji İnstitutun tarix fakultəsini bitirir.

Lerik Rayon Partiya Komitəsinin təbliğat və təşviqat şöbəsinin müdiri vəzifəsində işləyir O, 1998-ci ilin iyul ayında Lerik orta məktəbinin direktoru təyin olunur. İki ildən sonra Lerik internat məktəbinin direktoru işləyir.

Uzun müddət səmərəli fəaliyyətinə görə Q. Ələkbərova Əməkdar müəllim fəxri adı verilir. 1971-ci ildə Qırmızı Əmək Bayrağı ordeni ilə təltif olunur.

Bəli, "Dəmirçi oğlu"uda Qafar Ələkbərov barədə hər kəsin bilmədiyi maraqlı məqamlar çoxdur. Kitabı oxumaqla buna əmin olarsınız.

***İ. Mütəllimoğlu***

# Aqrar islahatlar uğurla davam etdirilir

Əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulan aqrar siyasət bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Cənab Prezident elə ilk illərdən kənd təsərrüfatını ölkəmizin milli təhlükəsizliyinin tərkib hissəsi kimi qiymətləndirərək, bu bölmənin davamlı inkişafına dair sistemli tədbirləri əhatə edən qərarlar qəbul etməyə başladı. Əsas prioritet məsələ əhalinin ekoloji təmiz ərzaq məhsulları ilə etbarlı təmin etmək idi. Bununla bağlı cənab Prezidentin məlum Fərmanı ilə "Dövlət Proqramı" qəbul edildi. Məqsəd kənd təsərrüfatına dövlət dəstəyini artırmaq, intensiv texnologiyanın tətbiqi, yeni, müasir texnikaların alınması, iri fermer təsərrüfatlarının yarardılması, toxumçuluğun və damazlıq heyvandarlığın inkişafı, heyvanlarda süni mayalanmanın tətbiqi ilə yeni yüksək məhsuldar heyvan cinslərinin yaradılması və s. məsələlər əsas məsələ kimi qəbul olununması yeni fermer təsərrüfatlarının yaradılması məqsədi daşıyır.

2007-ci ildən başlayaraq məhsul istehsalçılarına əkdikləri əkin sahəsinin hər hektarına 40,0 manat (buğda və çəltik istehsalçılarına isə əlavə olaraq 40,0 manat) subsidiyanın verilməsi, mineral gübrələrin, damazlıq heyvanların, və kənd təsərrüfatı texnikalarının lizinq yolu ilə fiziki-hüquqi şəxslərə satılması, toxumçuluq təsərrüfatlarına əlavə dövlət vəsaitinin ayrılması və s. aqrar sahəyə göstərilən diqqət və qayğının aydın təzahürüdür. Bütün bunların nəticəsidir ki, 1996-cı ildən başlayaraq kənd təsərrüfatında dinamik inkişafa nail olunmuş, 2018-ci ilin 9 ayında kənd təsərrüfatı 4,3 % artmışdır.



***Vüqar Mirzəyev***
***Lerik Rayon İcra Hakimiyyəti başçısı aparatının Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdir müavini***

Nazirlər Kabinetinin 2018-ci ilin 9 ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında cənab Prezident İlham Əliyev giriş nitqində demişdir: "Biz kənd təsərrüfatının ardıcıl artımını görürük. Ümüd edirəm ki, növbəti illərdə bu artım daha da böyük olacaq. Kənd təsərrüfatı 9 ayda 4,3 % artmışdır. Hesab edirəm ki, bu da kifayət qədər yaxşı göstəricidir". Əsas ərzaq məhsullarının istehlakının 100 % Azərbaycanda istehsal olunan məhsullar hesabına təmin olunması, taxıl istehsalını özümüzü təmin edəcək səviyyəyə çatdırmaq hədəf götürülmüşdür. Buna nail olmaq üçün yeni iri fermer təsərrüfatlarının yarardılması zəruridir. Cənab Rrezidentin Sərəncamı ilə "Azərbaycan Respublikasında kənd təsərrüfatı kooperasiyasının inkişafına dair 2017-2022-ci illər üçün Dövlət Proqramı" qəbul olunmuşdur. Yeni iri təsərrüfatların yaradılması torpaqlardan səmərəli istifadə etməklə yanaşı, yeni iş yerlərinin yaradılmasını, yerli ictehsalın artımını da təmin edəcəkdir. Bu məqsədlə kənd təsərrüfatı kooperativlərinin yaradılması çox vacib məsələdir. Qeyd etmək lazımdır ki, bazar iqtisadiyyatının uzun müddət bərqərar olduğu və inkişaf etdiyi Almaniya, İsveç, İtaliya, Fransa, Danimarka və digər inkişaf etmiş ölkələrdə kənd təsərrüfatı istaehsalı və satışının 60-100%-i kooperativlərin payına düşür. Kənd təsərrüfatı istehsal və istehlak kooperativlərinin yaradılmasının bir sıra üstün cəhətləri XXI əsrin tələblərinə uyğun texnika və texnologiyaların tətbiqi üçün əlverişli şəraitin yaranması, istehsal edilən məhsulun itkisiz yığılması, son istehlak malına kimi emalının təşkili, kənd təsərrüfatı məhsullarının istehlakçılarına vaxtında və yüksək keyfiyyətlə çatdırılması, yeni iş yerlərinin açılması, kənd təsərrüfatı mütəxəssislərinin ixtisasına uyğun işlə təmin olunması, kənd ərazilərində sosial infrastrukturun yaradılması, ekoloji tarazlığın bərpası və s. nəzərə alınaraq respublikamızda da bu məsələyə diqqət artırılmalıdır. Bunun üçün kooperativlərin təşkili və kooperasiya əlaqələrinin qurulmasında dövlətin dəstəyinə böyük ehtiyac vardır.

Ərzaq təhlükəsizliyi problemini həll etmək, kənd təsərrüfatı ilə əlaqəli fəaliyyət göstərən təşkilatların (emal, maddi-texniki təzhizat, aqroservis, kredit, sığorta, məhsulların tədarükü və satışı və s.) inhisarının qarşısını almaq, kənd ərazilərinin inkişafına təkan vermək, infilyasiyaya yol verməmək və rəqabətə davamlı məhsul istehsalı iləqloballaşan dünya istehsalına inteqrasiya olunmaq üçün kənd təsərrüfatı istehsalçılarının birgə fəaliyyətinə əsaslanan könüllü kooperasiya əlaqələrinin qurulması dövrümüzün mühüm tələblərindəndir. Müasir dünya praktikası sübut edir ki, kənd təsərrüfatının gələcək inkişafı əsasən kooperasiyanın üstünlüklərindən istifadə etməklə müəyyən ediləcək, ailə (kəndli) təsərrüfatları və kiçik kənd təsərrüfatı müəssisələrinə xidmət məsələləri isə kənd təsərrüfatı kooperativlərinin yaradılması və və köməyi ilə həll olunacaqdır. Bunu nəzərə alaraq inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrdə kənd təsərrüfatı istehsal və istehlak kooperativlərinin yaradılmasına və onlara dövlət dəstəyinin göstərilməsinə xüsusi önəm verilir.

Respublikamızda yeni yaradılmış istehsal kooperativlərinin açılış mərasimində çıxış edən kənd təsərrüfatı naziri İnam Kərimov demişdir:"Pay torpaqlarının birləşdirilməsi fermerlərin təkbaşına üzləşdikləri çətinlikləri birlikdə dəf etməsini asanlaşdıracaq. Kənd təsərrüfatı kooperativlərinin yaradılması torpaqlardan daha səmərəli istifadə etməyə imkan verir və fermerlərin gəlirlərini daha da artırır. Bu həmçinin rəqabət qabiliyyətli məhsul istehsalını, xarici bazarlara çıxışı asanlaşdırır. Digər tərəfdən fermerlər torpaq və əmlakı birləşdirməklə kooperativə iri investisiya layihələri cəlb edə, mövcud texnikadan daha uyğun şərtlərlə yeni, müasir texnika ala biləcəklər".

Rayonumuzda da bu istiqamətdə ərazi icra nümayəndəlikləri və bələdiyyələr tərəfindən əhali arasında maarifləndirmə tədbirləri genişləndirilməli, iri təsərrüfatların yaradılması istiqamətində ciddi tədbirlər görülməlidir. Bu son nəticədə məhsul bolluğuna və əhalinin maddi-rifah halının yaxşılaşdırılmasına səbəb olacaq, növbəli əkin sistemi tətbiq edilməklə torpaqlardan daha səmərəli istifadə olunmasına münbit şərait yaradacaqdır.

# Sosial-iqtisadi inkişafın göstəriciləri fərəh doğurur

## *Lerik rayon Statistika İdarəsinin rəisi Nizaməddin Muradov redaksiyamızın qonağıdır*



**- Nizam müəllim, Azərbaycan Respublikası regionda ən gözəl potensiala malik olan ölkə kimi ciddi addimlar atir.Gəlin söhbətimizə buradan başlayaq.**

- Prezident İlham Əliyev demişdir ki, son 15 ildə dünyanın heç bir dövlətinə müyəssər olmayan sürətli inkişaf yolu keçmiş, Azərbaycan valyuta ehtyatlarını 28 dəfə çoxaldaraq 45 milyard dollara yüksəlmiş, iqtisadiyyata 250 milyard dollar investisiya yatırılmışdır.İnkişaf səviyyəsini xarakterizə edən bütün əsas göstəricilərin əhəmiyyətli dərəcədə yaxşılaşdırılması Azərbaycanın regionda ən güclü potensiala malik olan ölkəyə çevrildiyini sübut edir. Sabit olan ölkələrə investorlar sərmayə qoymaqda maraqlıdırlar. Ona görədə Azərbaycana sərmayə qoyan şirkətlərlə yanaşı, onların coğrafyası da getdikcə genişlənir. Prezidentin inkişaf strategiyasına uyğun olaraq həyata keçirilən çoxçaxəli islahatlar sayəsində 2019-cu ildə uğurlar daha da artacaqdır.

**- Lerik rayonunun sosial-iqtisadi göstəriciləri statistikanın rəqəmlərində özünü necə göstərir?**

- Rayonumuzun sosial-iqtisadigöstəricilərinin rəqəmlərlə ifadəsi barədə biz mütəmadi olaraq "Lerik" qəzetində məlumat veririk. Qeyd etmək istərdim ki, regionlarin inkişafı sahəsində qəbul edilmiş Dövlət Proqramları uğurla həyata keçirilir və bu proqramlar, dövlət başçısının sərəncamlarında nəzərdə tutulmuş vəzifələr bu gün də icra olunmaqdadır. Bu, yeni müəssisələrin və yeni iş yerlərinin açılmasına, nəticədə əhalinin rifah halının yaxşılaşdırmasına və yoxsulluq həddinin azaldılmasına təkan vermişdir. 2018-ci ilin yanvar-sentyabr ayları ərzində rayonda əsas sahələr üzrə göstəricilər əvvəlki ilin eyni dövrü ilə müqaisədə xeyli yüksəlmişdir.Sənaye məhsulu istehsalı 663.7 min, kənd təsərrüfatı məhsulu istehsalı 40148.1 min, nəqliyyat və rabitə üzrə xidmətlər 2807.7 min, ticarət və pullu xidmətlər 13739.9 min manat və digər əsas sahələr üzrə 39.9 min manat məbləğində olmuşdur.2017-ci ilin müvafiq dövründəkindən diri çəkidə ət istehsalı 5.3 faiz, süd istehsalı 1.6 faiz artmış, yun istehsalı 5.5 faiz azalmış, yumurta istehsalı isə 0.2 faiz artmışdır.

2019-cu ilin məhsulu üçün herik şumunu vurulması gələn il taxıl istehsalının bünövrəsini qoymuşdur. 1655 hektar sahədə herik şumu qaldırılmış, 481 hektar payızlıq bitkilər əkilmişdir. Taxılçılıq sahəsində Nüvədi, Nücü, Əliabad, Şingədulan, Osyodərə, Züvüç və Cəngəmiran ərazilərində yaşayan əhali zəmilərihər hektarından 20-22 sentner, kartofçuluqda isə Şingədulan, Züvüç, Kələxan, Çayrud, Osyodərə, Daster və Mondigah ərazilərində fərdi təsərrüfatlar hər hektardan 145-150 sentnerdən çox məhsul götürmüşlər.

İlin 9 ayı ərzində kəndli fermer təsərrüfatları tərəfindən 2341.2 min manat dəyərində heyvandarlıq və bitkiçilik məhsulları istehsal edilərək istehlakçılara satılmışdır. Bu da ötən ilin eyni dövründəkindən 116.9 min manat çoxdur.

**- Rabitə və sənayedəki vəziyyət barədə nə demək olar?**

- Rabitə və sənaye müəssisələrinin xidməti rayon əhalisi məişətinin ayrılmaz hissəsidir Lerik Rayon Poçt Filialı və Telekomminikasya Qovşağı rayon əhalisinə 435.2 min manatlıq rabitə xidməti göstərmişlər. Rabitə xidmətlərinin həcmi xeyli artmışdır. Əldə olunan gəlirin 86 faizi TKQ-nin, 14 faizi isə RPF-nin payına düşür. Rabitə işçilərinin orta aylıq əmək haqqı 237 manatdır.

Sənaye gəldikdə isə bu sahə ilə EPŞ, Su-Kanalizasya Qurğuları İstiasmar Sahəsi və Qaz İstismar Sahəsi məşğuldur. Həmin müəssisələr ilin 9 ayında 663.7 min manat dəyərində məhsul istehsal etmişlər. Bu, keçən ilin eyni dövrü ilə müqaisədə 24.5 min manat azdır. Adları qeyd olunan sənaye müəssisələrində fəhlə və qulluqçu, mühəndis-texnik işçilərinin orta aylıq əmək haqqı 517.9 manat, 2017-ci ilin eyni dövrü ilə müqayisədə 22 manat çoxdur. Ümidvarıq ki, rayon 2019-cu ili yüksək sosial-iqtisadi göstəricilərlə başa vuracaq.

**- Musahibəyə görə sizə minnətdarıq.**

- Yeni ildə yerli jurnalistlərə yeni ruhda işləməyi və uğurlar arzulayırıq.

***Müsahibəni yazdı:***
***İdris Şükürlü***

# Narkomaniya böyük bəladır

Bəşəriyyət üçün ən böyük bəlalardan olan narkomaniyanın törətdiyi fəsadlara qarşı mübarizə hazırda çox aktual xarakter daşıyır. Narkomaniya əleyhinə aparılan tədbirlər hər zaman ölkə rəhbərliyinin diqqət mərkəzində olmuş, onların gücləndirilməsi istiqamətində bir sıra işlər görülmüşdür. Bu istiqamətdə görülən tədbirlərin gücləndirilməsi və koordinasiyası məqsədilə Azərbaycan Respublika Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyası yaradılmış, narkomaniyanın fəsadlarının aradan qaldırılması və bu istiqamətdə görülən işləri daha da gücləndirmək məqsədilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2013-cü il 24 iyun tarixli, 2966 nömrəli Sərəncamı ilə "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narıkomanlığa qarşı mübarizəyə dair 2013-2018-ci illər üçün Dövlət Proqramı" təsdiq olunmuşdur. Bu strateji kurs Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilərək, narkotik vasitələrin qanunsuz dövriyyəsinin və narkomanlığın yayılmasının qarşısının alınması istiqamətində bir sıra tədbirlər həyata keçirilmişdir.

Azərbaycan dünyanın bir çox ölkələri ilə müqayisədə narkotiklərin ən az yayıldığı məmləkətlərdən hesab edilsə də narkomaniyanın və narkotik cinayətkarlığın yayılma tempi ilə bağlı faktlar bizdə həyəcan doğurmaya bilmir. Əgər yaxın keçmişə qədər narkotik vasitələrdən məişətdə yalnız müxtəlif məqamlarda istifadə olunurdusa, yaxud narkomaniyanın mövcudluğu faktlarının "nümunəvi cəmiyyət" görüntüsü naminə gizli saxladığı Sovetlər dövründə bu sosial bəlaya düçar olmuş tək-tək azərbaycanlı barmaqla göstərilirdisə, indi narkotiklərin qanunsuz dövriyyəsilə bağlı çoxsaylı faktlar, rəqəmlər, hadisələr aşkarlanır və mövcud vəziyyət göstərir ki, narkomanlıq cəmiyyətimizin ən müxtəlif təbəqələrinə sirayət etməkdədir.

Bu gün biz narkomanlığı narkotik vasitələrə, dərmanlara, həblərə qeyru-sağlam, qarşıalınmaz aludəçilik, hərislik kimi başa düşürük. Odur ki, narkoman dedikdə, təsəvvürümdə özünü şüurlu surətdə "ağ ölüm" epidemiyası yoluxdurmuş, mübtəla etmiş xəstə canlandırmaqla, dərhal da həmin xəstəliyin ictimai təhlükəliliyi haqqında ürəyimizdən qorxu və həyəcan doğuran fikirlər keçirir. Çünki, bu xəstəlik zəncirvairi reaksiya yolu ilə yayılaraq fərdi və ictimai həyatı məhvə sürükləyir.

Təbii ki, hər hansı bir neqativ hal doğru-düzgün mübarizə həmin halı doğuran səbəblərin ətraflı surətdə təhlil edilib aradan qaldırılması mexanizmini işləyib hazırlamağı zəruru edir. Adətən narkomanlıq narkotik tərkibli bitkilərdən alınan zərərli məhsullara alidəçiliyin, ayrı-ayrı adamların iradəsizliyinin, mənəvi-əxlaqi naqisliyinin nəticəsi ilə izah edilsə də, səbəbləri sosial-siyasi, iqtisadi ziddiyyətlərlə bağlı olduğundan onları aradan qaldırmaq heç də asan deyil.

Narkotiklərlə mübarizə qurumlarının əsas vəzifəsi isə öz fəaliyyət dairələri çərçivəsində profilaktik tədbirlər görmək, sosial sorğular aparmaq, əməliyyat-axtarış tədbirləri keçirmək və bütün bunların nəticəsində narkotik maddələrə meylli insanlarla narkoişbazlar arasında yaranmış və yaxud yarana biləcək əlaqələri aradan qaldırmaqdan, qanunsuz dövriyyədə olan narkotik vasitələri, psixotrop maddələri və prekursorları üzə çıxarıb məhv etməkdən, narkomaniyanın və narkotik cinayətkarlığın yayılmasının qarşısını almaqdan ibarətdir.

Lakin görülən işlər və keçirilən tədbirlərə baxmayaraq, rayonumuzda yeniyetmə və gənclərin hüquq pozuntuları hallarına yol verilməsi faktlarının mövcudluğu, əsrin bəlası olan narkomaniyanın əsasən gənclərimiz arasında yayılması bu sahələrdə həyata keçirilən tədbirlərin daha da gücləndirilmləsini tələb edir.

Dünyəvi bəlaya çevrilən narkomanlığın yayılmasının və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə işində respublika Prezidentinin sərəncamlarından, tapşırıq və tövsiyələrindən irəli gələn vəzifələrin yerinə yetirilməsi istiqamətində daha effektiv çalışmalı və problemlərin həlli ilə bağlı aidiyyəti qurumlarla birlikdə lazımi qərarlar qəbul etməklə onların icrasına nəzarəti qəbul etməklə onların icrasına nəzarəti daha da artırmalıyıq.

***Bəhruz İbrahimov,***
***Lerik rayon prokuroru,***
***baş ədliyyə müşaviri***

# Mirağa Səfərquliyev buna layiqdir

Yaxınlarda "Azərbaycan Milli Ensiklopediyası"nın 5-ci cildini nəzərdən keçirirdim. 251-ci səhifədə Cəfərquliyev Mirağa Əşrəf oğlu barədə dərc olunmuş məlumat diqqətimi cəlb etdi. Ensiklopediyanın redaksiya heyətinin sədri cənab Prezident İlham Əliyev, sədrin birinci müavini isə Ramiz Mehdiyevdir. Nəzərə alsaq ki, ensiklopediya külliyatı hər 50 ildə bir dəfə nəşr olunur, bu külliyyatın nə qədər böyük örnək daşıdığını anlamaq çətin deyil.



Milli Ensiklopediyada qeyd olunmuşdur ki, Cəfərquliyev Mirağa Əşrəf oğlu 1940-cı noyabrın 11-də Lerik rayonunun Günəşli kəndində anadan olmuşdur. 1990-cı ildə hüquq elmləri doktoru, 2010-cu ildə professor, 1987-ci ildə Ədliyyə general-mayoru rütbələrini qazanmışdır. O, 1972-2001-ci illərdə hüquq-mühafizə, partiya və dövlət orqanlarında müxtəlif vəzifələrdə çalışmışdır. 2007-ci ildən AMEA-nın Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutunda baş elmi işçidir. 197 elmi əsərin, bir neçə dərsliyin və dərs vəsaitinin müəllifidir. Azərbaycan SSR Ali Sovetinin (12-ci çağırış) deputatı olmuşdur.

Bəli, mən Mirağa Cəfərquliyevlə həmişə fəxr etmişəm. Əvvəla, o, mənim şagirdim olmuşdur. İkincisi də çətinliklə, zəhmətlə, istedad və bacarığı ilə böyük vəzifələrə, ədliyyə general-mayoru rütbəsinə qalxmışdır, çoxlu alim yetişdirmişdir. Deputat kimi, elə indi də ağsaqqallığı, el-obaya bağlılığı, xeyirxahlığı, yüksək ziyalı mövqeyi, alim bacarığı ilə həmişə yüksəkdə durmuş, doğulduğu kəndi, el-obanı, təhsil aldığı məktəbi, müəllimləri, dostlarını unutmamışdır. O, bir daha Leriki ucaltmış, şəhrətləndirmişdir. Biz onunla fəxr edir, qürur hissi keçiririk.

Qeyd etmək lazımdır ki, Mirağa Cəfərquliyev Azərbaycan Prezidenti yanında Ali Attestasiya Komissiyasına hüquq sahəsi üzrə ekspert komissiyasının üzvü təyin edilmişdir. Alim hörmət, nüfuz sahibi kimi yetirmələrinə həmişə diqqətlə yanaşır, onların yüksək elmi-nəzəri bilik qazanmasına, istedadlarının üzə çıxmasına nail olur. Professorun milli cinayət-prosessual hüquqa bəxş etdiyi ən dəyərli töhfəsi "Azərbaycan Respublikasının cinayət prosesi" sahəsində yazdığı silsilə dərsliklərdir.

Mən Mirağanı həm də iti qələm sahibi kimi tanıyıram. O, mətbuatın, jurnalistlərin dostudur. "Qızıl qələm" sahibidir. Səmərəli elmi fəaliyyətinə, elmi yaradıcılığına, fəal ziyalı mövqeyinə görə "Avropa Nəşr Mətbu Evi" mükafat komissiyasının qərarı ilə "İlin ən yaxşı vətənpərvər alimi", qızıl medalı və diploma layiq görülüb.

Mirağa heç vaxt titul, tərif, mükafat xatirinə işləməyib. Onun halallıqla qazandıqları əməyinə, şəxsiyyətinə verilən qiymətdir.



***Musa Bədəlov,***
***biologiya üzrə fəlsəfə doktoru, Prezident təqaüdçüsü***

# Keçmişə körpü - gələcəyi görməkdir



***Şair dostum, üç kitab müəllifi Akif Ağayevlə "Məşəl" jurnalının redaktoru Əliməmməd Ağazadəni mən və Noda kəndinin ağsaqqal ziyalısı Məhəbbət Ağayev 50-ci kilometr deyilən yerdə qarşıladıq. Hal-əhval tutduqdan sonra Noda kəndində getdik.***

Yolda Akif Ağayev dedi:

- Atam İmamverdi Ağayev 50-ci illərdə Noda kəndində aqranom işləyib. Mən burada dördüncü sinifə qədər məktəbdə oxumuşam. O vaxtdan 66 il ötüb keçsə də Noda kəndini, kəndin adamlarını, o vaxtkı təbiətin əsrarəngiz gözəlliklərini, uca dağlardan seyr etdiyim səmanın zənginliklərini unutmamışam. Hər şey uşaq yaddaşımda necə qonubsa, eləcə də xatirələrimdə yaşayır. Məhəbbət Ağayev dedi:

- Atam Ağaverdi atanız İmamverdi ilə bir kolxozda işləyib. İmamverdi aqronom işləyirdi. O, Nəsrulla Məstiyevin evində qalırdı. Nəsrulla Lerikdə kənd təsərrüfatı idarəsində olarkən İmamverdi kişini ona qoşub deyirlər:

- Sədr, aqronom üçün gəzirdi, öz ayağı ilə gəlib çıxıb. Sən ona kömək et, kənddə qalıb işləməsi üçün ev tap.

İmamverdi ilə ilk söhbətindən sonra Nəsrulla Məstiyev onun təcrübəli bir mütəxəssis, yaxşı insan olduğuna əmin olur. Həm də o, müharibənin əzab-əziyyətindən çıxıb gəlmişdi. Leninqradda (indiki Sankt-Peterburq) işləmişdi. Doğma yerlər onu çəkdiyi üçün Azərbaycana gəlmişdi, onu işləmək üçün dağ rayonu Lerikə göndərmişdilər. O Lənkəranda kənd təsərrüfatı Texnikumunu fərqlənmə ilə bitirmişdi...

Nəsrulla ona öz evində mənzil ayırdı və İmamverdi ilə dost oldular.

Akif Ağayev məktəbdən görünən kəndlərə tamaşa edib dedi:

Bura elə bil amfiteatırdır. O vaxtlar Noda kəndi çox kiçik idi. İndi, maşallah kəndə asfalt yol çəkilib. Burada məktəb, baxça, həkmi məntəqəsi, məscid var, üstü küləçli evləri, müasir görkəmli evlər əvəz edib. Çayın hövzəsiylə Osyoşülə adlı hissəsində çimərdik, göy noxudu dəstələyib sütül vurardıq, tarlalarda göbələk yığardıq, dovşanları, tülküləri qorxudub ardınca qaçardıq...



Şəhid Habil Nəciyev adına Noda kənd tam orta məktəbinə daxil olduq. Məktəbdə təhsil almış 5 məzun Qarabağda şəhid olub. Sinif rəhbəri Şaiq Məmmədov bizi mehribanlıqla qarşıladı. Akif Ağayev 4-cü sinif şagirdlərinə özü ilə gətirdiyi dəftər-qələmi payladı, onlara "Ay Noda" adlı şerini oxudu, məktəblərə təhsildə uğurlar arzuladı. Xatirələrinin danışdı. Dedi ki, vaxtilə mən Noda kəndində dördüncü sinifdə oxumuşam. Çoxdan sinfin şagirdləri ilə görüşmək arzusunda idim. Nəhayət arzuma çatdım...



Mən məktəbin təcrübəli müəllimi Vəkil Zəkiyevin sual dolu baxışlarını görüb dedim:

- Akif Ağayev istedadlı, fədakar şairdir. Poemalarından və müxtəlif şeirlərindən ibarət "Eşqin səcdəsində", "Cinayətsiz cəza" və "Məhbəsdən məktublar" adlı kitabların müəllifidir. Yeni kitabı çapa hazırlanır.

"Məşəl" jurnalının baş redaktoru, şair Əliməmməd Ağazadə dedi:

- Mən Akif Ağayevlə tanış olandan ondan müsbət insani keyfiyyətlər gördüm. Onun şair fəhmindən, duyğularından yaranmış, poeziya nümunələri, bəşəri hissləri ehtiva edir. Narahat şair qəlbi ona oxucu rəğbəti qazandırıb. Akif həm də "Məşəl" dərgisində poeziya şöbəsinə rəhbərlik edir.

...Akif Ağayev uşaqlıq xatirələri, Nodalı günləri bitib tükənmək bilmir. Bu görüşün səbəbkarları söhbəti Elçin Mirzəyevin bişirdiyi ləziz tamları dadmaqla, çay içə-içə, "Kəklikdə" davam etdirdilər

### Ay Noda

Qoynuna gələdim gülə-gülə mən,
Məktəbə gələrdim hər səhər tezdən.
Uşaqlar şuluqluq salanda bəzən,
Müəllim məni tərifərdi, ay Noda.

Bulaqların şır-şır ilə axardı,
Qız-gəlinlər gəlib növbə tutardı.
Gecikənlər gendən durub baxardı,
Haçan çatar növbələri, ay Noda!

Lampa işığında dərs oxuyadım,
Bəzən dəftərimə yamaq qoyardım,
Anama köməyə soğan soyardım,
Gözlərimdən yaş axardı, ay Noda!

Bilnə çayına çimməyə gedərdik,
Yaş noxuddan sütül vurub yeyərdik.
Ağaclarda quş yuvası görərdik,
Ətçələri qoruyardıq, ay Nova.

Kənd gəncləri tonqal qalayardılar,
Göy noxuddan dərib qovurardılar.
Sütüllərin külün sovurardılar,
Tozlu-tozlu yeyərdilər, ay Noda.

Novruz bayramında şənlik olardı,
Kimi zurna, kimi qaval çalardı.
Şənlik səsi ətrafa yayılardı,
Eşidənlər şənlənərdi, ay Noda.

Mənim üçün müqəddəsdir müəllim,
Elmi şərbətə döndərən də müəllim.
Doğru yolu göstərərdik müəllim,
Mən bu yolla çox getmişəm, ay Noda.

Boynumda çoxlu borcun var idi,
Bura qələnədək yerim dar idi.
Bu gün həmin borcu verdim, ay Noda.
İndi genişliyə çıxdın, ay Noda.

O illəri arxada qoymuşam mən,
Sənin adın asılıbdır sinəmdən.
Bu gün bu məktəbi görüb-görəndən,
Ürək sənə "sağ ol" deyir, ay Noda!

***29-XI-2018***

# MÜŞFİQ YENİDƏN DOĞULUR...

## Mikayıl Müşfiqin qalıqlarının aşkar edilməsi ilə bağlı məlumatlar dövlət başçısının nəzarətindədir

Azərbaycan xalqının nakam şairi, qeyri-adi istedad sahibi, poeziyamızın əbədi gənci Mikayıl Əbdülqadir oğlu İmanzadə 1908-ci ildə Bakının "Dağlı" məhəlləsində dünyaya gəlmişdir. Rus-tatar məktəbində ibtidai təhsil almış, 12 saylı II dərəcəli məktəbdə oxumuş, Azərbaycan Dövlət Darülfününda dil və ədəbiyyat fakültəsini bitirmiş, Bakının orta məktəblərində müəllimlik etmişdir. O "Gənc işçi" qəzetində nəşr etdirdiyi "Bir gün" şeiri ilə poeziya aləminə gəlmişdir.



Fitri istedadlı tanınmış şair, qəlbin, ruhun nəğməkarı, "səma şairi", söz boyası ilə lövhələr yaratmış, poeziyası xalq ruhundan qidalanmış Mikayıl Müşfiq 27 yaşında 10 kitab qələmə almış, nəyə qadir olması xalq tərəfindən qiymətləndirilmiş, əbədiyaşarlıq qazanmışdır.

Hüseyn Cavid Müşfiqə yüksək qiymət verərək demişdi: "Mikayıl Müşfiq bir günəşdir, yandıqca yandıracaq".

Repressiyanın qurbanı olmuş və 1938-ci ildə günahsız güllələnmiş Mikayıl Müşfiqin güllələndiyi yer, məzarının harada olması barədə kütləvi informasiya vasitələrində müxtəlif fikirlər yayılmışdır. Bu möhtərəm Prezidentimiz İlham Əliyevin diqqətini cəlb etmişdir. Azərbaycan Respublikası Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi - şöbə müdiri Əli Həsənov bildiribki, Mikayıl Müşfiqin nəşinin qalıqlarının aşkar olunmasına dair yayılan məlumatlar dövlət başçısının nəzarətindədir və Azərbaycan Prezidenti Milli Elmlər Akademiyası, Səhiyyə, Mədəniyyət nazirlikləri və digər əlaqədar qurumların münayəndələrindən ibarət iş-



çi qrupunun yaradılması ilə bağlı göstəriş verib. Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin yanında işçi qrupunun ilk iclasında yaradılmış, qrupa KİV-lərdə dərc olunmuş məlumatların öyrənilməsi, müvafiq arxiv materiallarının araşdırılması, Mikayıl Müşfiqə aid olduğu ehtimal edilən DNT analizinin aparılması və digər zəruri tədbirlərin həyata keçirilməsi barədə tapşırıqlar verilib.

Əli Həsənov bildirib ki, cənab Prezident həmişə Azərbaycan mədəniyyətinə, mədəniyyət və incəsənət xadimlərinə, xüsusilə repressiya qurbanı olmuş ziyalılarımızın xatirəsinə böyük diqqətlə yanaşıb. Bunun bariz nümunəsi kimi, dövlətimizin başçısının 2017-ci ilin fevralında Bakının Yasamal rayonu ərazisində, keçmiş Statistika dairəsi adlanan yerdə Mikayıl Müşfiqin heykəlinin demontajına münasibətini göstərmək olar. O vaxt cənab Prezident məsələnin araşdırılması, günahkarların cəzalandırılması, heykəlin dərhal öz yerində bərpa olunması ilə bağlı tapşırıq vermiş, həmin göstərişin qısa zamanda icra olunmasından sonra da heykəli ziyarət etmiş və önünə gül dəstəsi qoymuşdur.

Mətbuatda dərc olunmuş məlumatlara görə, Müşfiqin basdırıldığı yer Qaradağ rayonunun Puta qəsəbəsində və ya Bayıl qəbiristanlığındadır.

DNT (dezoksiribonuklein turşusu) analizinin keçirilməsindən sonra - yəni tapılmış nəşinin qalıqlarının Müşfiqə aid olub-olmadığını müəyyənləşdirmək olar. Bunun üçün şairin ata nəslindən olan yaxın qohumlarından müayinələr götürülüb.

Biz əminik ki, nəhayət uzun illərdən sonra nakam şairimizin də məzarı olacaq, nəşinin tapılmış qalıqları Müşfiqin adına layiq dəfn ediləcək, ədalət bərpa olunacaq, nakam şair öz haqqına qovuşacaqdır.

Bəli, Mikayıl Müşfiq yenidən doğulur. Son mənzili qəlbimizə yer alan Müşfiq dünya durduqca yaşayacaq.

***İdris Şükürlü,***
***publisist***

**P.S.** ***Mikayıl Müşfiq 1933-cü ildə Lerikdə olmuş, rayonun bənzərsiz təbiətini "Mənim dostum" adlı poemasında vəsf etmiş, ziyalılarla görüşmüşdür. İ.Şükürlünün "Bolluq uğrunda" (indiki "Lerik") qəzetində "Müşfiq gəzib bu yerlərdə", "Dilbərin Müşfiqsiz günləri", "Xəzərdən soruşdum Müşfiqi, susdu, cavab vermədi" ("Lerik") adlı araşdırma məqalələrimi yazıb, oxuculara təqdim etmişdir.***

***Müşfiqin böyük qardaşı Mirzə 1938-ci ildən sonra Astara rayonunun Pensər kəndində, (bəzi məlumatlara görə Masallıda) yaşayıb, lakin şairin qardaşı olduğu üçün bu barədə kimsəyə bildirməyib. Bu ayrıca bir mövzu ola bilər.***

# Məzunlar görüşdü, şəhidlər yad edildi

Çayrud kəndində qələbəlik idi. Kəndin ağsaqqalları, veteran müəllimlər, ziyalılar, şəhidlərin yaxınları məktəbə axışırdılar. Çox çəkmədi ki, hamı öz yerini tutdu.

E.Səfərov adına Çayrud kənd tam orta məktəbinin direktoru Eltay Almazov tədbirui açaraq qonaqları salamladı. Direktor müavini Elçin Mirzəyev tədbir iştirakçılarını Dövlət Bayrağı münasibətilə təbrik etdi, dövlət atributları barədə məlumat verdi. Məktəbin məzunlarına söz verildi. Onlar orta məktəbi 50 il əvvəl bitirmişdilər. Əlli ilin xatirələri də çox idi. Yaddaqalan, unudulmaz, şirinli-acılı xatirələr.

Onlar 42 nəfər olublar. 32 nəfəri ali təhsilli idi. Müxtəlif sənət, peşə sahibləri olsalar da məktəb həyatını, gənclik xatirələrini, olub-keçənləri, çatdırdıqları arzularını unutmamışdılar. Ən əsası, Nayıb Hüseynov, Nəzərəli Tağıyev, Mirxanım Fətullayeva, Bəxtiyar Kərimov, Şahnəzər Köçəliyev, Hökməli Xəlilov, Sədrəddin Kərimov çıxışlarında ötən illərin ayrı-ayrı məqamlarına toxundular, keçmişə baş vurdular.

Tədbirdə məzunların toxunduqları və ilmələrdən boylanan şəhidlərin- Elşən Səfərovun, Mübariz Ziyadovun, Zamir Tağıyevin, Famil Tağıyevin fotoları, parlaq simaları öz əksini tapdı, xalça məktəbə hədiyyə verildi. Şəhid ailələrinin nümayəndələri şəhidlərin xatirəsini əziz tutduqları üçün məzunlara təşəkkür etdilər.

Maraqlı tədbirin sonunda şagirdlərin ifasında Dövlət Bayrağına, şəhidlərimizə həsr olunmuş şeirlər dinlənildi, məktəbə bayraq hədiyyə verildi.

Tədbir bayram süfrəsi ətrafında davam etdirildi, xatirə şəkilləri çəkildi.

***Elçin Mirzəyev, Çayrud kəndi.***

## Yaşa, Vətən!

Yolunda can qoydu igid ərənlər,
Əsarət buxovun qırdı şəhidlər.
Uğrunda qalxmışdı dərgaha əllər,
Yaşa, doğma yurdum, müstəqil yaşa.

Gözlədin bu günü sən gör neçə il,
Xalqın zəkasıyla oldun müstəqil.
Ucalan bayrağın enməz daha bil,
Yaşa, doğma yurdum, müstəqil yaşa.

Paytaxtın Bakıdır möhtəşəm şəhər,
Önündə güzgüdür o mavi Xəzər.
Meşələr, bağ-bağat canlı bir əsər,
Yaşa, doğma yurdum, müstəqil yaşa.

Qüdrətli ordula zəfər çalırsan,
İlhamla dünyaya qapı açasan.
Xalqınla sevinir, fərəh duyursan,
Yaşa, doğma yurdum, müstəqil yaşa.

Sənlə fəxr edirəm, ey doğma diyar,
Qoynunda yaşayır hamı bəxtiyar.
Səndən ilham alır Əziz İxtiyar,
Yaşa, doğma yurdum, müstəqil yaşa.



***İxtiyar Əziz***

## Nur saçarsınız

*Azərbaycan xalqının qüdrətli oğlu, bütün Türk dünyasının əvəzolunmaz lideri, dünya şöhrətli siyasətçi və diplomat, dahi mütəfəkkir, uzaq görən filosof, müstəqil Azərbaycanın qurucusu Heydər Əliyevin əziz xatirəsinə*

O gün bəd xəbərdən sarsıldı millət,
Gözünü yummuşdu dahi şəxsiyyət.
Bütün Azərbaycan batmışdı qəmə,
Bu xəbər yayıldı bütün aləmə.

Hər yerdən gəlirdi ağlaşma səsi,
Göz yaşı içirdi odlar ölkəsi.
Son mənzilə yola düşürdü rəhbər,
Milləti üzürdü acı qəm-kədər.

İnsnalar axışdı vida yerinə,
Ehtiram bəslədi öz rəhbərinə.
Əlvida söylədi Ulu Öndərə,
Heydər baba adı düşdü dillərə.

Ağrılara dözdü illərdən bəri,
Bu odlar yurdunun böyük rəhbəri.
Azadlıq bəxş etdi o, öz xalqına,
Millət də məhəbbət göstərdi ona.

Məzara qoyuldu o dahi insan,
Sükuta qərq oldu bir anlıq hər yan.
Haqqın dərgahına ruhu ucaldı,
Heydərin haqq sözü qəlblərdə qaldı.

Nələr yaratmışdı o dəyir gözə,
Həyat məktəbidi, örnəkdi bizə.
O qurdu müstəqil , milli dövləti,
Mövqeyində oldu hər zaman qəti.

Yat, yerin pambıq tək yumşaq olsun,
Məzarın əbədi nur ilə dolsun.
Tarix yaşadacaq, Siz yaşarsınız,
Millətin yoluna nur saçarsınız.

***Əkrəm Xürrəmi***

# Müəllim gözümdə ən uca insan



Ulu öndərimiz Heydər Əliyev müəllim barədə demişdir: "Mən müəllim peşəsindən müqəddəs vəzifə görmürəm". Peyğəmbərcəsinə deyilmiş bu qiymətli kəlamda həqiqət böyükdür. Xalqımızın milli-mənəvi dəyərlərindən qidalanan, ümumbəşəri inkişafdan su içən, dünya təhsil sisteminə qovuşmaq yolu ilə gedən, vəzifəsi yeni insan tərbiyəsi olan müəllimlər respublikamızın təhsil ocaqlarında az deyil. Onlardan biri də Elçin Mansur oğlu Mirzəyevdir.

Elçin Mirzəyev ona dərs demiş müəllimləri özünə ideal seçmişdi. Şagird partası arxasında əyləşib bu müqəddəs peşə sahiblərinə diqqətlə qulaq asardı. Bir hiss, duyğu qəlbinin dərinliklərindən baş qaldırardı: "Kaş mən də müəllim olaydım, şagirdlər məni heyranlıqla dinləyər, onlara elm , bilik və mərifət öyrədə biləydim..."

Bu istəklə, həvəslə də Çayrud kənd orta məktəbini tamamladı. İki illik ordu həyatını Rusiyanın Smolensk vilayətində başa vurdu. N.Tusi adına Pedaqoji İnstitutunda oxuduğu illər, haylı-haraylı tələbəlik dövrü, ona ali təhsil verən müəllimlər Bakının gözəlliyi, elm və mədəniyyət mərkəzləri Elçin Mirzəliyevin həyatında silinməz izlər buraxdı. 1993-cü ilin sentyabırında Andurma kənd əsas məktəbinə ibtidai təhsil müəllimi təyin olundu. O, ilk gündən pedaqoji işə həvəslə başladı, təcrübəsini, qabaqcıl iş metodlarını öyrəndi və dərs prosesində tətbiq etdi. Hər bir fərdin şəxsiyyət kimi formalaşmasına, əsl vətəndaş kimi yetişməsinə, elmli və bilikli olmasına nail oldu. O bilirdi ki, bilik vermək məktəbin, müəllimin vəzifəsidirsə, tərbiyə etmək, vətəni qoruyub müdafiə etmək onun ikiqat vəzifəsidir. Elçin müəllim təkcə şagirdlərə ibtidai təhsil vermirdi, onların milli ruhda böyüməsi, vətən, torpaq uğrunda fədakar gənclər yetişdirməsi üçün bütün pedaqoji imkanlardan istifadə edirdi. Həmin gənclər özlərini Milli Orduda xidmətdə, şəhidlik məqamına yüksəlməkdə, əsil vətənpərvər olmaqda, çalışdıqları iş yerlərində özlərini doğrultdular, müəllimlərinə, valideyinlərinə, elə-obaya baş ucalığı gətirdilər.

Elçin müəllim 1997-ci ildən işlədiyi Andurma kənd əsas məktəbinə direktor təyin edildi. 2009-cu ildən E.Səfərov adına Çayrud kənd tam orta məktəbinin direktoru oldu. Bir neçə il ötdükdən sonra həmin məktəbdə tədris işləri üzrə direktor müavini işləyir. 2018-ci ildə anadan olmasının 55 illiyi, pedaqoji fəaliyyətinin 25 ili tamam oldu. Əslində isə o, pedoqoji fəaliyyətini gənclik həvəsi ilə, təcrübəli müəllim ustalığı ilə davam etdirir.

Milli dəyərləri şüurlu olaraq sevən, vətənə xidməti həyat qayəsi hesab edən, vətəndaşlar yetişdirmək müəllimin ən müqəddəs vəzifəsidir. Müəllim milli dəyərlərimizin, milli həyat gücümüzün yenidən yaradılması üçün heç nəyi əsirgəməməlidir. O, öyrətmək istədiyi hər bir mövzu və məsələni dərindən bilməli, təzəlikləri, bəşəri hissləri duymalı və praktikadatətbiq etməlidir. Çox fərəh doğuran haldır ki, Elçin müəllim vəzifəsinin məsuliyyətini dərindən dərk edir, şagirdlərə qüvvətli mənəvi təsiri ilə öyünür, fəxr edir.

***İ. Mütəllimoğlu***



***Muradəli Hüseynov***
***Boradi kəndi***

## Utanmırsanmı?

*Sülhə təhlükə yaradan, torpaqlarımızın 20 faizdən çoxunu işğal eedən, bir milyon insanı qaçqın və köçkünə çevirən işğalçı ölkənin rəhbəri Nikol Paşinyana.*

Yalanı düz kimi yaydın cahana,
Özündən uydurdun min bir bəhanə.
Dünyanı bezdirib gətirdin cana,
Yalan danışmaqdan doymamısanmı?

İftira, yalanla aləmi qatma,
Hiyləgər yollarla məqsədə çatma.
Əl çək bəhanədən, vaxtı uzatma,
Əyriyə düz deyib utanmırsanmı?

Cilddən-cildə girib dəyişdin donu,
Gördün havadarı, əydin boynunu.
Nə vaxt qurtaracaq işğalın sonu?
Min cildə girməkdən utanmırsanmı?

Vəhşi donuz kimi yurduma girdin,
Neçə min insanı qətlə yetirdin?
İnsanlıq simasın tamam itirdin,
Yurdumu qəsb etdin, utanmırsanmı?

Dünyada yaşayır hamı mehriban,
Türkiyə, Rusiya, qonşumuz İran,
Həmişə can deyib, eşidirlər can,
Sən sülhü pozmaqdan utanmırsanmı?

Eşit sözlərimi, işğalçı ölkə,
Sözüm qulağına çatmayır bəlkə.
Dünyada olmusan sağalmaz ləkə,
Çirkin əməlindən utanmırsanmı?

## Lerikim mənim

Bu gün açılışdır, xalqım şadlanır,
İnsanlar özlərin şən, xoşbəxt sanır.
Uğurlar qartal tək hey qanadlanır,
Qoynunda sevincdir, şən yurdum mənim!

Sən uca zirvəsi doğma yurdumun,
Daş da çiçək açır sevincdən bu qün.
Arzular çin olur, parlayır bu gün,
Üzündə sevincdir, Lerikim mənim.

Qəlbin təlatümlü, hey aşır-daşır,
Xalqının sevinci həddini aşır.
Deyilən xoş sözlər sənə yaraşır,
Qoynunda şadlıqdır, Lerikim mənim.

Şən həyat fərəhlə bu gün nur saçır,
Dağlar da sevincdən bu qün dil açır.
Həyat yeniləşir, burda nur saçır.
Arzum çiçək açır, Lerikim mənim.

Səs salır uğurun hər yana bu gün,
Həyat gözəlləşir, daim günbəgün.
Xalqım açılışa toplaşıb bu gün,
Qoynunda şadlıqdır, Lerikim mənim!

O böyük, saf qəlbin uğurla dolu,
Bu gün işə düşdü Hamarat yolu.
Hər günün, hər ayın zəfərlə dolu,
Üzündə sevincdir, Lerikim mənim!

## Hörmətli oxucular!

***Rayonumuzun yeganə mətbu orqanı olan***

***"Lerik"***

***qəzetinə 2019-ci ilin birinci yarım ili üçün abunə yazılışına başlanmışdır. Qəzetə Lerik Rayon Poçt filialında və və redaksiyanın özündə abunə yazıla bilərsiniz. Qəzetin yarım illik abunə qiyməti 10 manatdır.***

***Redaksiyanın Kapital bankın Lerik filiallındakı hesab nömrəsi H/№AZO5AİİB33080019447400220174,***
***VÖEN: 6300050071-dir.***

***Qəzetimizə abunə yazılanlara əvvəlcədən öz minnətdarlığımızı bildiririk.***

***"Lerik" qəzeti redaksiyası***

*Əziz oxucular!*

*Onu da qeyd edək ki, ilin ikinci yarısında bəzi idarə və təşkilatlar "Lerik" qəzetinə abunə yazılmayıblar.*

*Biz "Lerik" qəzetinə abunə olmayan idarə və təşkilatların adlarını, onların rəhbərlərinin adlarını qəzetimizdə çap edəcəyik.*

# Yeni il şənliyi keçirilərkən yanğın təhlükəsizliyi qaydalarına əməl olunmalıdır

Təqvim ilinin dəyişməsi - Yeni il dünyanın müxtəlif xalqları üçün ənənəvi bayrama çevrildiyi kimi, Azərbaycanda da insanların məişətinə daxil olmuşdur. Hər il dekabr ayının sonu, yanvar ayının əvvəllərində evlərdə, təhsil ocaqlarında, istirahət parklarında və digər obyektlərdə yolkalar qurulur, onlar müxtəlif bəzək əşyaları ilə bəzədilərək işıqlandırılır. İnsanlar, xüsusən uşaqlar yolkanın ətrafında təşkil olunan şənlikdə iştirak edir, əylənirlər.

İnsanların bir yerə toplaşdıqları bu Yeni il şənliklərində onların təhlükəsizliyinin qorunması vacibdir. Xüsusən atəşfəşanlıqla müşayiət edilən belə şənliklərdə yanğın təhlükəsi ehtimalı çox olduğundan yanğın təhlükəsizliyi qaydalarını bilmək və ona əməl etmək olduqca vacibdir. Ona görə də Yeni il şənliyi keçirilən obyektlərin rəhbərləri, şənlik iştirakçıları bilməlidirlər ki, mülkiyyət formasından asılı olmayaraq bütün obyekt və müəssisələrdə (sahibkarlıq subyektlərində və s.) yanğın təhlükəsizliyinin təmin edilməsində cavabdehlik onların rəhbərlərinin üzərinə düşür.

Obyektin bütün işçiləri yanğına qarşı təlimatlandırılmalı və onlar baş verə biləcək yanğın hadisəsi zamanı vəzifələrini dəqiq bilməlidirlər!

Ehtiyat çıxış yollarının qarşısı əşyalarla tutulmamalı və sərbəst çıxışa mane olan qurğular quraşdırılmamalıdır. Köçürmə yolları işıqlandırılmalı və birbaşa çıxışa doğru açılması təmin edilməlidir.

Yeni il yolkası binanı tərk etməyə iki sərbəst çıxış yolu olan və ehtiyat çıxış qapılarının üzərində yaşıl rəngli "ÇIXIŞ" sözü (elektriklə işiqlandırılmış) yazılmış göstərici lövhə asılan, eləcə də ikinci mərtəbədən yuxarı olmayan və yanmayan arakəsmələr olan otaqlarda qurulmalıdır!

Yolka ağacı yerə möhkəm bərkidilməli, dayaqlar üzərində elə quraşdırılmalıdır ki, onun budaqları tavana və divarlara toxunmasın!

Yeni il şənlikləri zamanı tikintinin imkanlarından (normadan) artıq insanların zala buraxılmasına (toplanmasına) yol verilməməlidir!

Yeni il şənlikləri keçirilən yerlər ilkin yanğınsöndürmə vasitələri ilə təmin edilməlidir!

Yeni il şənliklərində atəşfəşanlıq məqsədilə pirotexniki vasitələrdən, həmçinin yanğın təhlükəli işıqlandırıcı maddələrdən istifadə edilməsi qadağandır!

Yeni il şənlikləri keçirilən obyektlərin pəncərələrində dəmir barmaqlıqlar olmamalıdır!

Yeni il şənliklərində yolkanın şamla işıqlandırılmasının yanğın təhlükəsi yaratdığını nəzərə alaraq buna yol verilməməlidir!

Yolka bəzədilərkən pambıqdan, tənzifdən və s. tezalışan parçalardan istifadə edilməməlidir!

Yeni il şənlikləri keçirilən zaman uşaqların geydiyi şənlik paltarları tezalışan materialdan olmamalıdır!

Tədbir keçirilən obyektlərdə giriş və cıxışlarda insanların toplaşmasına, əşyaların (stol, stul və s.otaqlarından) yığılmasına yol verilməməlidir!

Otaqlarda işıqlandırma sistemi olmadıqda tədbir yalnız gündüzlər keçirilməlidir!

Şam ağacının bəzədilməsində istifadə olunan lampalar ardıcıl qoşulmalı və bu zaman gərginlik 12 voltdan, cərəyan 25 vatdan artıq olmamalıdır!

Tədbir zamanı qaynaq, rəngləmə və digər yanğıntörədici partlayış təhlükəli işlərin görülməsi qadağandır!

Oturacaqların ara məsafəsinin azaldılması, əlavə stul və kreslolar qoyaraq cərgəarası keçidlərin bağlanması yolverilməzdir!

Yanğın təhlükəsizliyinə cavabdeh olan növbətçilərin və digər məsul şəxslərin olmadığı zaman obyektlərdə tədbir keçirmək olmaz!

Yanğın zamanı nə etməli

Tədbir zamanı yanğın baş verdikdə dərhal Fövqəladə Hallar Nazirliyinin 112 qaynar xəttinə zəng vuraraq məlumat vermək lazımdır!

İşıqlandırıcı vasitələr dərhal şəbəkədən ayrılmaqla söndürülməlidir!

Tədbir iştirakçılarının dərhal təxliyə olunmasına başlanılmalıdır!

Əldə olan vasitələrlə yanğının söndürülməsinə başlamaq lazımdır!

Yeni il şənlikləri zamanı yanğın təhlükəsizliyinə əməl edin!

***FHN Dövlət Yanğın Nəzarəti Xidməti***

## "Lerik"də oxuyun:

- Dünyada ən nadir ağac Qaraçöhrə Lerikdə bitir?
- Lerik Rayon İcra Hakimiyyətinin başçısı Rövşən Bağırovla müsahibə.
- Necəsən, Aşıq Əlifağa Əmioğlu?
- Sən kimsən? Bağa qınından çıxdı, qının bəyənmədi...

Redaktor
İdris ŞÜKÜRLÜ

Təsisçilər:
Lerik Rayon İcra Hakimiyyəti və "Lerik" qəzetinin redaksiyası
H/№AZO5AİİB33080019447400220174
VÖEN:6300050071

Lisenziya № V 280
İndeks 96935
Hər kəs öz imzasına cavabdehdir.
Əlyazmalar geri qaytarılmır

Redaksiyanın ünvanı:
Lerik şəhəri,
Nizami küçəsi
Tel: (070) 520-73-91

Qəzet "Son Dakika" MMS mətbəəsində hazır diapozitivlərdən çap olunmuşdur.
Tiraj: 500
Sifariş: 506

